# Münacat

***Bağışlayan və mehriban Allahın adı ilə!***

*- İlahi, mən "yalnız sağlam qəlblə Allahın hüzuruna gələn kimsədən (möminlər) başqa, mal-dövlət və övladın heç kimə fayda vermədiyi gün» – Səndən aman diləyirəm!*
*- İlahi, mən «zalımların əllərini çeynəyərək «Kaş ki, Peyğəmbərə qoşulub doğru yol tutardım!» deyən gün» – Səndən aman diləyirəm!*
*- İlahi, mən «günahkarların simalarından tanınacağı, alınları və ayaqlarından tutulub yaxalanacağı gün» – Səndən aman diləyirəm!*
*- İlahi, mən «atanın oğluna, oğulun da ataya heç bir şeylə kara gələ bilməyəcəyi və Allahın vədinin (qiyamətin) hökmən olacağı gün» – Səndən aman diləyirəm!*
*- İlahi, mən «zalımlara üzrxahlıqları heç bir fayda verməyəcəyi, onların lənətlənəcəyi və axirət yurdunun pis əzabına düçar olacağı gün» – Səndən aman diləyirəm!*
*- İlahi, mən «heç kəs başqasının karına gələ bilməyəcəyi və hökmün ancaq Allaha məxsus olacağı gün» – Səndən aman diləyirəm!*
*- İlahi, mən «hər kəsin öz qardaşından, anasından, atasından, zövcəsindən və oğullarından qaçacağı və hərənin öz hayında olacağı gün» – Səndən aman diləyirəm!*
*- İlahi, mən «əzabın şiddətindən günahkar bəndənin öz oğullarını, zövcəsini və qardaşını, ona sığınacaq verən qohum əqrəbasını və yer üzündə olanların hamısını fəda etməyə razı olub, (Allahın əzabından) qurtulmaq istədiyi və xeyr (bunun mümkün olmadığı), artıq (cəhənnəmin) alovlandığı, başların dərisini sıyırıb ayırdığı gün» – Səndən aman diləyirəm!*
*- Ey mənim mövlam və vəlim! Sənsən ağa, mən isə qul, bəs, qula ağadan başqa kim rəhm edər?!*
*- Ey mənim mövlam və vəlim! Sənsən sahib, mən isə nökər, bəs, nökərə sahibdən başqa kim rəhm edər?!*
*- Ey mənim mövlam və vəlim! Sənsən izzətli, mən isə zəlil, bəs, zəlilə izzətlidən başqa kim rəhm edər?!*
*- Ey mənim mövlam və vəlim! Sənsən xaliq, mən isə məxluq, bəs, məxluqa xaliqdən başqa kim rəhm edər?!*
*- Ey mənim mövlam və vəlim! Sənsən əzəmətli, mən isə aciz, bəs, acizə əzəmətlidən başqa kim rəhm edər?!*
*- Ey mənim mövlam və vəlim! Sənsən qüdrətli, mən isə zəif, bəs, zəifə qüdrətlidən başqa kim rəhm edər?!*
*- Ey mənim mövlam və vəlim! Sənsən varlı, mən isə yoxsul, bəs, yoxsula varlıdan başqa kim rəhm edər?!*
*- Ey mənim mövlam və vəlim! Sənsən əliaçıq, mən isə əlaçan, bəs, əlaçana əliaçıqdan başqa kim rəhm edər?!*
*- Ey mənim mövlam və vəlim! Sənsən diri, mən isə ölü, bəs, ölüyə diridən başqa kim rəhm edər?!*
*- Ey mənim mövlam və vəlim! Sənsən əbədi, mən isə fani, bəs, faniyə əbədidən başqa kim rəhm edər?!*
*- Ey mənim mövlam və vəlim! Sənsən daimi, mən isə məhv olan, bəs, məhv olana daimidən başqa kim rəhm edər?!*
*- Ey mənim mövlam və vəlim! Sənsən ruzi verən, mən isə ruzi uman, bəs, ruzi umana ruzi verəndən başqa kim rəhm edər?!*
*- Ey mənim mövlam və vəlim! Sənsən səxavətli, mən isə əsirgəyən, bəs, əsirgəyənə səxavətlidən başqa kim rəhm edər?!*
*- Ey mənim mövlam və vəlim! Sənsən dada yetən, mən isə dara düşən, bəs, dara düşənə dada yetəndən başqa kim rəhm edər?!*
*- Ey mənim mövlam və vəlim! Sənsən böyük, mən isə kiçik, bəs, kiçiyə böyükdən başqa kim rəhm edər?!*
*- Ey mənim mövlam və vəlim! Sənsən hidayətçi, mən isə çaşqın, bəs, çaşqına hidayətçidən başqa kim rəhm edər?!*
*- Ey mənim mövlam və vəlim! Sənsən mərhəmətli, mən isə sığınan, bəs, sığınana mərhəmətlidən başqa kim rəhm edər?!*
*- Ey mənim mövlam və vəlim! Sənsən soltan, mən isə bəlalı, bəs, bəlalıya soltandan başqa kim rəhm edər?!*
*- Ey mənim mövlam və vəlim! Sənsən bələdçi, mən isə sərgərdan, bəs, sərgərdana bələdçidən başqa kim rəhm edər?!*
*- Ey mənim mövlam və vəlim! Sənsən bağışlayan, mən isə günahkar, bəs, günahkara bağışlayandan başqa kim rəhm edər?!*
*- Ey mənim mövlam və vəlim! Sənsən qalib, mən isə məğlub, bəs, məğluba qalibdən başqa kim rəhm edər?!*
*- Ey mənim mövlam və vəlim! Sənsən rəbb, mən isə bəndə, bəs, bəndəyə rəbbdən başqa kim rəhm edər?!*
*- Ey mənim mövlam və vəlim! Sənsən möhtəşəm, mən isə zəlil, bəs, zəlilə möhtəşəmdən başqa kim rəhm edər?!*
*- Ey mənim mövlam və vəlim! Rəhmətinlə mənə mərhəmət et, bəxşiş, kərəm və fəzlinlə mənə güzəştə get.*
*- Ey bəxşiş, ehsan, nemət və bərəkət sahibi, Sənə öz rəhmətini and verirəm, ey rəhmlilərin ən rəhmlisi!*

# *İxlasın nəticəsi Allaha qovuşmaqdır*



***Allahın təkliyinə iman edənlər Onu bütün nöqsan sifətlərdən xalis bilməlidir. Eləcə də məxluqun Allahın zat və ya sifətlərini əhatə etməsi qeyri mümkündür. İnsaniyyətin kamalı bundadır ki, o, özünü Allaha layiq olan mərifətə çatmaqda aciz bilsin. Pərvərdigar ucalardan uca olaraq, bütün məxluqları əhatə etmişdir. Amma ixlasın bir növü də məxluqun özünə aiddir.***
***Yəni, şəxs öz ibadətində xalis olmalıdır. O, Allahdan qeyrisinə ibadət etməməlidir. Öz əqidəsində yalnız Allahı Xaliq bildiyi kimi, Ondan başqalarına əlaqə, iman və məhəbbət bəsləyib, onları müstəqil hesab etməməlidir. Bəndənin ixlasının kamalı, Allaha xalis bəndəlik etmək və Ondan qeyrilərinə əlaqə bəsləyib onların qarşısında zəlil olmamaqdır. Qeyd etdiyimiz kimi, Allah-təala Qurani-kərimdə buyurubdur ki, müvəhhid olan şəxslər Allaha bəndəlik etməkdə xalis olmalıdır. Pərvərdigarın şərafətli ayədə buyurduğu «muxlisin» kəlməsi bəndələrin halını bəyan etmək üçündür. Yəni, Allah bəndəsinin etimad etdiyi qüdrət yalnız Allahdır və sevdiyi şeyləri də ancaq Ondan ötrü sevir.***

### Bütün mövcudları yalnız Allahdan ötrü sevir

İnsan mal və övladını da Allaha xatir sevməlidir. Çünki, mal və övlad Allahın ona bəxş etdiyi nemətlərdəndir. İnsan tənha öz bədən üzvlərini deyil, aləmdə olan bütün varlıqları da Allahın verdiyi əmanət kimi sevməlidir. Amma onun bu varlıqlara olan məhəbbəti, müstəqil olmayıb yalnız Allaha xatir olmalıdır.

İnsan elə bir yerə çatır ki, orada Allahdan başqa heç kəsi görmür. Bax gör insanlığın məqamı necə bir məqamdır, bəşər elə bir zirvəyə çata bilər ki, o məqamda Allahdan başqa heç bir varlığa meyilli olmaz. Pərvərdigarı bütün işlərin tədbir edəni hesab edər. Əgər insan Allahı bütün çətinlikləri həll edən ən böyük tərbiyəçi, həyat bağışlayan və öldürən kimi tanıya bilsə, o, müxlis (xalis) bəndəyə çevrilər. Belə insanlar «tohidin» kamalına çatanlardır.

### Paklanmış insan Allahı pak görür

Qeyd etdiyimiz kimi, ixlasın əvvəl mərtəbəsi Allahı layiq olmayan şeylərdən münəzzəh və uzaq bilməkdir. Sonrakı mərtəbəsi isə şəxsin özünə aid olan, bəndəliyin bütün mərhələlərində xalis olmaqdır. Bu iki məsələnin bir-birindən ayrı şəkildə təsəvvür edilməsi qeyri mümkündür. (Və kəmalu Tohid əl ixlasu ləhu) (Allahı bir bilməyin kamalı onun qarşısında xalisliyə yetişməkdir) cümləsində olan «ləhu» kəlməsinin şəxsin öz xalisliyinə aid olmasına baxmayaraq bəziləri onu hər iki mənada «şəxsin özünün və onun Allaha olan ixlası» kimi təfsir etmişlər.

Çünki, insan əqidədə Allahı xalis biləndə özü də xalis olur. Elə buna görə də özü xalis olmayan şəxsin Allahı xalis bilməsi qeyri mümkündür. Hələ də qəlbi Allahdan başqasına meyilli olaraq, həqiqətdə ona pərəstiş edən kəs, şirk xəstəliyinə düçar olmuşdur. Çünki o, qəlbində Allahdan başqasına yer vermişdir və Allahı mütləq xalis kimi tanımamışdır. Bu adam bütün kamalların Allaha məxsus olduğunu hələ də dərk etməmişdir. Əksinə kamalı, qəlbini bağladığı kimsəyə nisbət vermişdir. Deməli, o, özü hələ də xalis olmamış və Allahı da xalis hesab etməmişdir. Əgər bir kəs öz işinin həll olunmasında Allahdan başqasını qadir bilsə, deməli, onu müstəqil hesab edərək, Allahı kənara qoymuşdur. Belə adamlar qüdrət və işlərin tədbiri məsələsində xalis olmayıb, Allahı da xalis hesab etmirlər.

### Riyakarlar müşrikdir

Bəziləri «Nəhcül-bəlağə»nin əvvəldə qeyd etdiyimiz xütbəsində ki, «ixlas» kəlməsini Allahın xalis olması, digərləri bəndənin xalis olması və bəziləri isə riyanı tərk etmək mənasına təfsir etmişlər. Bəli, bu mənaların hamısı «ixlas» kəlməsində vardır, amma sizin diqqətinizi riya mövzusuna cəlb edirik.

Əgər bir kəs ibadəti başqasına nümayiş etdirməkdən ötrü yerinə yetirsə, həmin anda o, nə özü xalis olmuşdur, nə də Allahı xalis hesab etmişdir. Özü xalis olmadığına və Allahdan başqasına ibadət edərək, Allahı xalis görmədiyinə görə müşrik hesab olunur. Çünki, onun Allahdan qeyrisinə olan ibadəti nümayiş etdirməkdən başqa bir şey deyildir. Allahı həmişə hazır və nazir görən adamın Ondan başqasına ibadət etməsi qeyri mümkündür. Amma qəlbini məxluqa bağlayıb Allahı kənara qoyan şəxs nə özü ibadətində xalis olmuş, nə də ki, Allahı xalis tanımışdır.

### İxlasın nəticəsi Allaha qovuşmaqdır

Allah-təala «Kəhf» surəsinin axırıncı ayəsində buyurur: «Kim Rəbbi ilə qarşılaşacağına, qiyamət günü dirilib haqq-hesab üçün Allahın hüzurunda dayanacağına ümid bəsləyirsə, yaxud qiyamətdən qorxursa, yaxşı iş görsün və Rəbbinə etdiyi

ibadətdə heç kəsi şərik qoşmasın!)» Bəziləri buyururlar ki, bu ayə ümid verən ayədir. Yəni, insan məyus olmadan Allahın yolunu tapa bilsə, «Liqaullaha» çatar, öz Rəbbinə qovuşar. Amma Pərvərdigarın yolunu tapmaq ixlasladır. Bəndə özünü xilas edə bilsə, mütləq «Liqaullaha» çatacaqdır.

Çünki, özünü xalis edən kəs Allahı da xalis hesab edir. Artıq belə insanlar üçün «mənəmliyin» mənası yoxdur. «Mənəmlik» kənara gedən zaman, insan özünü daim haqqın hüzurunda görür. Belə şəxslər həmişə «Liqaullah» dadırlar. Əlbəttə Allahla olan bu görüş bizim təsəvvür etdiyimiz cismani görüş deyildir. Səduqun (r) «Tohid» kitabında belə bir rəvayət vardır: Zələb həzrət Əlidən (ə) soruşdu: «Ey Əli, Allahını görmüsənmi?»

İmam (ə) onun cavabında buyurdu: «Görmədiyim Allaha heç vaxt ibadət etmərəm. Həzrət bu sözlərin ardınca buyurdu: Allahı zahiri gözlə görmək qeyri mümkündur. Amma Onu qəlbdə olan imanın həqiqəti ilə görmək olar».

## İxlas olan zaman qəlb ilə görüşmək

Gözün hiss qüvvəsi həmişə səhvə yol verə bilər. Bir şeyi görəndə onun yüz faiz düzgün olmasını təsdiq edə bilməz. Göz bəzən mövhumatı həqiqət kimi görür. Məsələn, sürətlə hərəkət edirsənsə yanan atəşi göz dairə şəklində müşahidə edəcəkdir. Amma bu həqiqi dairə deyildir. Müştərək hislərin sürəti nəticəsində göz atəşi dairə kimi görür.

Gözün xətaları çoxdur və onun hiss qüvvəsi Allahı görə bilməz. Göz bu vəziyyətdə yalnız cisimləri görür. Cismi yaradan Allah, belə xüsusiyyətlərdən münəzzəh və uzaqdır. Allahı gözlə görmək qeyri mümkündür. Onu yalnız qəlbin gözüylə görmək olar. Bəs görəsən qəlbin görməsi nə vaxt baş verir? İnsan öz məğrurluğunu unudaraq xalis olmayınca Allahı görə bilməz. Amma əgər xalis ola bilsə, ixlasın birinci mərtəbəsi olan «şühuda» çatar. Şühudun özünün də dərəcələri vardır. Xalis olan şəxs nəhayətdə elə bir yerə çatır ki, daim özünü «Liqaullah»da görür.

Deməli, übudiyyətin (bəndəçiliyin) ixlası rübubiyyətin (Allahlığın) ixlası ilə yanaşı olmalıdır. Amma nə qədər ki, təkəbbür götürülməyib, Allahı qəlbin gözüylə görmək qeyri mümkündür.

## Günahdan çəkinmək ixlasın əlamətidir

«Üsuli-kafi»də İmamlarımızdan (ə) belə bir hədis nəql olunur: «Bir kəs xalis və muxlis olduğu halda Allahın birliyinə şəhadət versə, behişt onun üçün vacib olur. Onun xalisliyinin səbəbi ondadır ki, tohid onu Allahın haram buyurduğu şeylərdən çəkindirir. Rəvayətdə «mən qalə» (kim desə) deyil, «mən şəhidə» (kim şəhadət versə) ifadəsi işlənmişdir. Çünki şəhadət vermək «şühudun» dərəcələrindən hesab olunur. Yəni həmin kəs artıq qəlbin gözü ilə görmək mərtəbəsinə çatmışdır. «Şəhidə» (şəhadət verdi) kəlməsinə çox diqqət etmək lazımdır.

Tohiddə «elm» və «şühuda» çatan şəxs, artıq ixlaslı adamdır. O, Allahı hər bir naqislikdən xalis bildiyi kimi, özü də bəndəliyində xalis olur. Elə xalis olduğuna görə də behişt ona vacib olur. Hədisin bu yerinə çatanda İmam (ə) mətləbi daha da açıqlamaqdan ötrü buyurur: İxlas o şeyə deyirlər ki, «tohid» insanı hər bir günahdan çəkindirsin. Daim haqqın hüzurunu dərk edən şəxs necə günah edə bilər?

## Allahın sübutu Yusifi (ə) qorudu

Züleyxa Yusiflə xəlvət yerdə tək-tənha qalanda Yusifi günahdan saxlayan şey, Allahın sübutu oldu. Əgər Pərvərdigarın dəlili olmasaydı, o, da pis əməli iradə edə bilərdi. Allah-təala bu barədə Quranda buyurur: «Doğrudan da, qadın ona meyl salmışdı. Əgər Rəbbinin dəlilini, xəbərdarlığını göstərməsəydi, Yusif də ona meyl edərdi. Biz pisliyi və biabırçılığı (zinanı) ondan sovuşdurmaq üçün belə etdik. O, həqiqətən, bizim sadiq bəndələrimizdəndir!» Burada işlətdiyimiz (Rəbbin dəlili) kəlməsi Rəbbin hüzuru və nəzarəti deməkdir.

Belə insanlar Allahı hər yerdə hazır görürlər. Allahın hüzuru insanı günahdan çəkindirən ən yaxşı qoruyucudur. İnsanlar Allahdan qafil olduqlarına görə günah edirlər. Bu hadisə barəsində rəvayətdə belə yazırlar: Züleyxa öz örtüyünü açıb bir şeyin üstünə atdı. Yusif (ə) soruşdu: O nə idi? Züleyxa cavab verdi: Mənim bütüm idi. Onun hüzurunda günah etmək istəmədim. Yusif buyurdu: Sən öz əlinlə düzəltdiyin, görməyən və eşitməyən bütdən həya etdiyin halda, mən necə aləmlərin Rəbbindən həya etməyim?Elə Onu günahdan saxlayan Pərvərdigarın bu dəlili idi.

## İsmət dərəcələrindən biri müxlislər üçündür

İnsan «şühud» dərəcəsinə çatanda, həm özü bəndəlikdə müxlis olur, həm də Allahı bütün layiq olmayan şeylərdən xalis hesab edir. Bunun nəticəsində hər bir günahdan qoruna bilir. «Tohid insanın cənnətə getməsinə səbəb olur» dedikdə məhz bu mətləb nəzərdə tutulur. Şübhəsiz ki, ən uca məqam Məsumlara (ə) aiddir. Amma başqalarının da ismət mərtəbəsinə çatması mümkündür. Bu mərtəbələrdə baş verən xəta, yalnız təsadüf üzündəndir. Məsumlar (ə) isə nə kəbirə (böyük günahlar), nə səqirə (kiçik günahlar) və nə də xəyallarında belə günah etmirlər. Onlardan qeyrisinin xəyallarında və ya təsadüf üzündən günah etmələri mümkündür. Amma günah edəndə tez tövbə edirlər və Allah da onların əməllərini islah edir.

İxlas mərtəbəsinə yetişmiş şəxslər məkruh əməllərdən də özünü qoruya bilir. Nəticədə bundan da yüksək məqama yetişərək, mubah əməlləri də Allah qarşısında ədəbsizlik hesab edib, onlardan da çəkinirlər.

Bu barədə Müqəddəs Ərdəbili (r) və bəzi başqa alimlərin həyatını misal çəkmək olar. O, ömür boyu nə cəmiyyət arasında, nə də təklikdə Allahın hüzurunda olduğuna görə ayaqlarını uzatmadı. «Ləaliyul-əxbar» da belə yazırlar ki, o, yalnız ölüm anında ayaqlarını qibləyə tərəf uzadaraq belə dedi:

Pərvərdigara! Mən neçə müddətdir ki, Sənin qarşında ədəbsizlik etməmişəm. Amma indi Sənin öz əmrin olduğuna görə ayaqlarımı uzatmağa məcburam.

Bu şəxsin mərifətinin nəticəsidir. Şeyx Murtəza Ənsari (r) barəsində belə nəql edirlər: Ölüm anında onun ayaqlarını üzü qibləyə uzatdılar. Şeyx ishal xəstəliyinə tutulduğuna görə, ayaqlarını qiblədən döndərdi. Orada olanlar şeyxin bu əməlinə təəccüb etdilər. Şeyx buyurdu: Siz öz təklifinizə əməl edin, mən də öz vəzifəmə əməl edirəm. Çünki, insandan sidik xaric olan anda üzü qibləyə olmaq haramdır.

*Seyyid Əbdül-Hüseyn Dəstiğeyb*



# VİLAYƏT VƏ TƏQVA

*(Əvvəli ötən sayımızda)*

***İslamın əsası beşdir: namaz, zəkat, oruc, həcc və vilayət. “Vilayətə dəvət kimi heç nəyə dəvət olmamışdır.”***

***Vilayət insanı zülmətlərdən nura tərəf aparan vasitədir.***

***“Allah ona inananların vəlisidir, onları zülmətdən çıxarıb işığa tərəf yönəldər.”***

***Ötən bəhsimizdə qeyd etdiyimiz kimi İslam dinində dəyərli mövzulardan biri də vilayətdir. Bu məfhumu və vilayətin bölmələrini dərk etmək üçün çoxlu bəhslər etmək lazımdır ki, onlardan biri də, “Vilayətullah”dır. Ötən yazının davamı olaraq bu məqalədə “Vilayətullah” (Allahın vilayətinə daxil olmaq) və vilayətin imamətlə olan əlaqəsi mövzusu araşdırılmışdır.***

## Ürəyi vermək və müstəqim Sirat

Allaha tərəf yola düşmək o qədər də asan deyil. Çünki insan həyatının bütün oxlarının vəziyyətini dəyişməli və Allaha tərəf istiqamətləndirməlidir. Əgər öz həyatımızın bir istiqamətini ona veririksə, həmin istiqamətdə – yəni səbildə yaşayırıq. Başqa istiqamətlərdə isə vilayətullahdan məhrumuq və xəsarətdə dəfn olunmuşuq. Əməlisalehlə saleh şəxsin fərqi səbil və Siratın fərqi kimidir. Əgər müqəddəs Qurani-Kərimin şərif ayələrinə nəzər salsaq, görərik ki, "səbil" cəmdə işlənmiş, amma Sirat sözü heç vaxt cəmlənməmişdir. Bu onu göstərir ki, səbillər – yəni saleh əməllər çox ola bilər, amma salehlər – birdir , o da Siratda olanlardır.

"Allah öz rizasına sığınanları onunla əmin-amanlıq yollarına yönəldər." {23}

"Bizi doğru yola yönəlt.." {24}

Sirat – yəni rüşd, yəni tam vücudu və imkanları ilə Rəbbə tərəf getmək deməkdir.

Deməli saleh əməllər hələ Siratda olmaq mənasında deyil, məsələn, əgər insan namaz qılırsa, bu saleh bir işdir, təkcə namaz qılmaq isə hələ həmən insanın salehliyinə dəlil deyil. Allah insanın yaxşı işini bəyənirsə, hələ bilinmir onun özündən də razıdır, ya yox.

İbrahim peyğəmbər (ə) deyir:

"Həqiqətən, mən Rəbbimə tərəf gedənəm. Mütləq hidayət olunacağam." {25}

İnsan öz rüşdü üçün Siratda irəliləməlidir ki, hidayət olunsun.

Peyğəmbər "mən" dedikdə, əməli yox, gözü yox, qulağı yox, özünü nəzərdə tutur. Əgər mən Allaha (Rəbbə) tərəf gedən olsam, əməlim də, sözüm də, üzvlərim də, əlaqələrim də yəqin ki, mənimlə gedəcək. Lakin bunun əksi düzgün deyil. Mümkündür sənin əməlin Allaha çatsın, amma özün hələ çata bilməyəsən.

Qurani-Kərimdə hidayət sözü iki mənada işlənmişdir. Onlardan biri yol göstərmək mənasındadır ki, belə hidayətin qapısı bütün insanların üzünə açıqdır. Lakin bir hidayət də vardır ki, məqsədə çatmaq mənasını daşıyır. Ayələrin bəzilərinə nəzər salaq:

"Və Allah kafirlər qövmünü hidayət etməz." {26}

"Və Allah zalımlar qövmünü hidayət etməz." {27}

"Və Allah fasiqlər qövmünü hidayət etməz." {28}

Aləmlərin Rəbbi həqiqəti də, batili də hidayət etsə də, batili heç vaxt məqsədinə çatdırmaz. Çünki batil "əbtər" (sonsuz)dur.

İnsan bütün işlərini - elm qazanmaq, işləmək, insanlarla rəftarını Allaha xatir həyata keçirməlidir. Quranın məntiqindən məlum olur ki, insan dünyadan köçəndə dünya üçün oxuduğu elm yadından çıxacaq. Dünyəvi elmlər dedikdə dünya üçün oxunan elmlər nəzərdə tutulur. Fizika, kimya axirət elmi, Quranın təfsiri isə dünya elmi ola bilər. Çünki təfsirçi riyakarlıq etdiyinə görə Quranı təfsir etmişdir. Bizə elə gəlir ki, namaz uxrəvi, fərz edək ki, gülmək dünyəvi işdir. Amma bu iş əksinə ola bilər. Hədislərdə oxuyuruq:

"Yetimin üzünə gülməyin böyük savabı vardır."

Amma Quranda nə buyurulur?

"Vay halına o namaz qılanların ki, onlar öz namazlarından qafildirlər..." {29}

İnsanları zahiri görkəmlərinə görə səhv tanıdığımız kimi, əməllərin də zahirinə baxıb birinə dünyəvi, digərinə isə uxrəvi ad qoyuruq, əslində isə batininə diqqət etmirik. Dünyanın iki mənası var. Məxluq mənasında olan dünya



pis deyil. Amma pislənən dünya , həmən dünyəvilik , dünya üçün, məxluq üçün görülən işlərdir. Pislənən dünya o dünyadır ki, imam Əli (ə) buyurur: "Mən dünyaya üç dəfə təlaq vermişəm."

Bütün insanlar hidayət olunsa da, məqsədə çatmaq hamıya nəsib olmur. Ona görə də:

"Aqibət müttəqilərindir." {30}

İbrahim peyğəmbərin (ə) dili ilə Allah insanlara müraciət edib deyir ki, "əgər mənim yolumu tutsanız, mütləq sizi hidayət edəcəyəm." İnsanın namazı, orucu Allaha tərəf olan səbillərdir. Əgər onların məqsədi aydın olmasa, hidayətlərinin qətiliyi yüz faiz deyil.

"Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib olduğu kimi, sizə də vacib edildi. Bəlkə, siz pis əməllərdən çəkinəsiniz." {31}

Ayəyə əsasən gedən özüməm, əgər getsəm, mütləq hidayət olunacağam. Bir sual yaranır ki, bəs cəhətim haradır və məqsədim nədir? Rəbbə tərəf gedirəm, məqsəd də Rəbbin özüdür. Mən Rəbbimin rübubiyyətinə inandığım üçün ona tərəf gedirəm. Çünki o mənə məndən də yaxındır və mənim məsləhətimi özümdən daha yaxşı bilir.

"Biz ona şah damarından da yaxınıq." {32}

"Biz ona sizdən daha yaxınıq, amma siz görmürsünüz." {33}

Allah həm məbdədir, həm məqsəddir, həm də aparandır. Uşağı bağçaya anası aparar, aparmaqdan məqsəd isə başqadır. Burda isə hər ikisi Allaha məxsusdur. Odur ki, Quranda buyrulur:

"Biz Allahdanıq və ona tərəf qayıdacağıq." {34}

Yuxarıdakı ayədən görürük ki, gedən ərəb dilində ismi-faildir. Ərəb dilinin qrammatikasından bilirik ki, ismi-failin xüsusi zamanı yoxdur, mütləq zamandadır. İnsan gah gedib, gah dayanmamalıdır. Gedən olmalısan: "getdin", "gedirsən", "ya gedəcəksən" olmamalısan. Onun mənası budur ki, həmişə gedəsən, rüşdü həyatının hər anında yaşayış meyarı biləsən. Əks halda gah gedib, gah da dayanmağı Siratda olmaq mənasında deyil. İnsan çalışmalıdır ki, həmişə Siratda yol getsin.

Yuxarıda qeyd etdiyimiz kimi, əgər insan hansısa bir saleh iş görürsə, o, səbilullahdadır, əgər insan özü salehdirsə, o, Siratdadır. Ona görə də Quranın ayələrini oxuyanda görürük ki, bir var saleh əməlləri icra edənlər, bir də var salehlər. Məsələn:

"Həqiqətən, iman gətirib yaxşı işlər görənlər üçün Allah bir sevgi yaradacaqdır." {35}

"Həqiqətən, Allah iman gətirib yaxşı işlər görənləri cənnətlərə daxil edir." {36}

"Şübhəsiz ki, mənim hamim Quranı nazil edən Allahdır. O salehlərə himayədarlıq edər." {37}

"Biz ona dünyada gözəl nemət bəxş etdik. Şübhəsiz ki, o, axirətdə də salehlərdəndir!" {38}

Mümkündür, insan əməllərinin birində səbilullahda olsun, digərində şəbili-şeytanda olsun. Yəni gözünü haramlara baxmaqdan qorusa da, qulağı qeybət eşitməyə meyllidir. Belə insanın Siratda olduğunu demək düzgün deyil.

"Əgər Allahın lütf və mərhəməti üzərinizdə olmasaydı, şübhəsiz ki, az bir qisminiz müstəsna olmaqla, şeytana uyardınız.." {39}

"Allahı atıb şeytanı özünə dost tutan şəxs, əlbəttə, açıq-aşkar ziyana uğramışdır.." {40}

Əgər insan günahlardan çəkinərsə, vəlisi Allah, yox əgər qəlbinin qapılarını günahlar üçün açarsa, vəlisi şeytan olar.

"Biz şeytanları iman gətirməyənlərin vəliləri etdik." {41}

Şeytan Allahın bəndəliyini qəbul edənlərə vəsvəsə yaradıb onu haqq yolundan sapındırar.

İnsanda ya nəfs böyüyər, ya ağıl. Nəfs böyüsə, xəsarətə düşər, ağıl böyüsə, nicat tapar. Buna görə, insan çalışmalıdır ki, nəfsin üzərində ağlın nəzarətini gücləndirsin. Deməli, Sirat yoluna düşmək üçün insan ağlını böyütməlidir. İzah etdiyimiz ayə – yəni İbrahim peyğəmbərin dediyi – "Mən Rəbbimə tərəf gedənəm, tez olar ki, hidayət olunaram" – bəşərin imkanı daxilindədir. Çünki Allah-Təala insana mümkün olmayan bir işi tapşırmaz.

"Allah heç kəsi qüvvəsi çatmayan işi görməyə vadar etməz." {42}

Buna oxşar cümlə daha üç surədə – Ənam surəsinin 152-ci ayəsində, Əraf surəsinin 42-ci ayəsində və Mominun surəsinin 62-ci ayəsində işlənmişdir. Yəni bu cümlənin təkrarı bir növ insanların yadına salır ki, ondan imkanı xaricində iş tələb olunmur.

"Allah heç kəsi ona verdiyindən artıq xərcləməyə məcbur etməz." {43}

Bu ayələrdən belə nəticə əldə etmək olur ki, hər kəs Allaha tərəf gedən ola bilər. Burada müxtəlif dəlillər gətirilsə də, bəhanə sayılacaq. Sirat-rüşd yolunda olmaq imkansız yox, asan deyil. Əgər asan olsaydı, insan günün müxtəlif vaxtlarında

"Bizi düz yola hidayət et." {44} deməzdi.

Hədislərdə buyurulmuşdur ki, Sirat tükdən nazik, qılıncdan itidir. Doğru yolu tapmaq da, tapdığın o doğru yolda getmək də çox çətindir. Dünya gözəllik və cazibələri bir tərəfdən, şeytanın vəsvəsələri digər tərəfdən insanın yolunu kəsir. Bu yolun çətinliyinə İnşiqaq surəsinin 6-cı ayəsində işarə olunmuşdur:

"Ey insan, sən Rəbbinin yolunda çox çalışmısan və onun görüşünə nail olacaqsan." {45}

Siratın ülgüsü imamdır.

İmam Siratın canlı təcəssümüdür. Buna görə də, hədis və təfsirlərdə imam Sirat kimi təfsir olunmuşdur. Çünki İmam möminlərin salehidir.




"Allah onun dostu, Cəbrayıl, möminlərin salehi (imam) və bunlardan sonra mələklər də onun köməkçiləridirlər." {46}

"Və kafirlər deyirlər sən peyğəmbər deyilsən, de Allah və kitab elmi sahibi olanın mənimlə sizin aranızda şahid olması kifayətdir.." {47}

İmam ən saleh mömin və kitab elminə bələd olan bir kəs, pak və mütəhhər qəlbə malik olandır.

"Siz ey Əhli-beyt, Allah sizdən çirkinliyi yox etmək və sizi təmiz, pak etmək istər.." {48}

## Vilayət və imam

Hədislərdə Kəbə ziyarətinin faydası imamın ziyarətinə nail olmaq sayılmışdır. Bu hal da təsadüfi deyil ki, vəli Kəbədə anadan olmuşdur.

İmam hər il Həcc mərasimində Məkkədə olur. Bəsirətli şəxs Kəbənin və imamın zəvvarıdır. الامام كالكعبة İmam Kəbə kimidir?

İmam Baqir (ə) buyurmuşdur:

"Həccin tamamı imamın görüşüdür." {49}

Əlbəttə, bu şəriət baxımından deyil, həccin sirlərindən sayılır.

İmam hər şeydən səməd, yəni qəni olan Allaha söykəndiyi üçün biz də onlara söykənməliyik. Buna görə də Məşhəddə imam Rzanın (ə) ziyarətinə getmək fəqirlər üçün həcc və Allahın ziyarəti sayılmışdır. Kim dövrünün imamını tanımasa cahillər kimi ölmüşdür.

Burada cahil sözü haqqında bir məsələni qeyd etmək istərdik. Cahil iki mənada işlənir. Bir cahillik var elmsizliyin müqabilində, bir də cahillik var ağılsızlığın müqabilində. İnsanın mümkündür elmi çox olsun, amma elmin çoxluğu ağlın da çoxluğunu sübut etmir. Alimlik dərəcəsində olan adam hər kiçik məsələdən əsəbləşirsə, bu onun ağlının azlığını göstərir. Allahın buyurduqlarının əksinə gedən alim aqil deyil. Bu hədisdə də cahil ağılsız sözünün müqabilində işlənmişdir.

İmamı tanıma Siratı tanımadır. Siratda gedən olmasan, nicat tapmazsan. Cahillik ölümü – rüşdsüz ölümdür ki, məhsulsuz, səmərəsiz yaşayışın nəticəsidir. İnsan özünü rüşd istiqamətində sərf etməlidir.

İmamı tanımağın da mərhələləri vardır. Bu mərhələlər məsum haqqında elmdən başlayıb, onu görmək, onun vilayətində qərar tutmaq və nəhayət məsumla olmağa qədər davam edir. Cahillik də mərhələlərə uyğun şəkildə aradan gedir.

## Qəlbin təqvası

Bu mərhələ insanın özünü, öz zəifliklərini, öz günahlarını tanımaqla başlayır. Əlbəttə insanın zəiflikləri iki şəkildədir. Zahiri zəifliklər, batini zəifliklər. Zahiri zəiflikləri aradan qaldırmaq üçün aşağıdakılara əməl etmək lazımdır.

1. Zahiri zəifliklərin araşdırılması təhlili və onların köklərinin tapılması.

2. Təqva ilə zahiri zəifliklərin aradan qaldırılması uğrunda çalışmaq.

Əməllərin təqvası qəlblərin təqvası üçün zəmin yaradır. Çünki zahirdə olan zəifliklərin aradan qaldırılması batində olanları üzə çıxarar.

"Ey iman gətirənlər! Əgər Allahdan qorxsanız, O, sizə bir furqan [nur] verər." {50}

Bu ayədən məlumdur ki, bəsirət təqvadandır və təqva ilə furqan əldə olunar.

Qəlb hisslər vasitəsilə qidalanır. Qəlb qidasız qalarsa, günah məhv olar. Nifrət və rəğbətlər əməllərin təqvası və rəftarlara nəzarət ilə nizamlanır. Boru zibillə dolarkən yəqin ki, görünən tərəfindən təmizlənər.

Bu nəzarətlə (zahiri zəifliklərə kontrolla) insan həm zəiflikləri tanımaq üçün lazımlı bəsirət kəsb edir və həm də zəiflikləri aradan qaldırmaq üçün səbr edən bir ruh inkişaf etdirir. Odur ki, əməllərin təqvası ilə qəlblərin təqvasının ruhi və iradi zəmini hazır olur.

3. Zəiflikləri tanımaq üçün güzgülərdən və xarici gözdən də istifadə etmək olar. Çünki əgər baxan mömin olsa, öz tərəfindən görə bilmədiyi zəiflikləri görə bilər. İnsanlar zəiflikləri nəticəsində kor olmuşlar və bu korluq zəifliyin aradan qaldırılmasına manedir. Hədislərdə buyrulur:

"Mömin Allahın nuru ilə baxır.."

Buna istinadən mömin həmin zəifliklərimi görə və mənim güzgüm ola bilər. Güzgü olmaq bu mənadadır ki, o elə rəftar edir ki, mən öz zəifliklərimi başa düşürəm. Güzgü demək yox, çatdırmaqdır. Güzgü tənqid yox, göstərməkdir.

Mömin müdrikliyi ilə öz mömin bacı və qardaşının şəxsiyyətini qorumaqla onun zəifliyini hədiyyə kimi ona bəxş edir. Hədiyyə – yəni sənin sözünü haqq bilsin və dərk etsin ki, bu sözü özünə və başqasına görə yox, ona görə dedin.

---

23. əl-Maidə surəsi, ayə 16
24. əl-Fatihə surəsi, ayə 6
25. əs-Saffat surəsi, ayə 99
26. əl-Bəqərə surəsi, ayə 258
27. əl-Bəqərə surəsi, ayə 264
28. əl-Maidə surəsi, ayə 108
29. Maun surəsi, ayə 4,5
30. əl-Əraf surəsi, ayə 128
31. əl-Bəqərə surəsi, ayə 183
32. Qaf surəsi, ayə 16
33. əl-Vaqiə surəsi, ayə 85
34. əl-Bəqərə surəsi, ayə 156
35. Məryəm surəsi, ayə 96
36. əl-Həcc surəsi, ayə 14
37. əl-Əraf surəsi, ayə 196
38. ən-Nəhl surəsi, ayə 122
39. ən-Nisa surəsi, ayə 83
40. ən-Nisa surəsi, ayə 119
41. əl-Əraf surəsi, ayə 27
42. əl-Bəqərə surəsi, ayə 286
43. ət-Təlaq surəsi, ayə 7
44. əl-Fatihə surəsi, ayə 6
45. əl-İnşiqaq surəsi, ayə 6
46. ət-Təhrim surəsi, ayə 4
47. ər-Rəd surəsi, ayə 43
48. Əl-Əhzab surəsi, ayə 33
49. Mizan ul-hikmə, hədis 3281
50. əl-Ənfal surəsi, ayə 29

***Muhəmməd Baqir Saivər***

# Dua ETMƏYİN 10 QAYDASI



***"Allaha and olsun ki, mömin bəndə əziz və cəlil olan Allahdan ehtiyacını diləməkdə israr etsə, mütləq ehtiyacı aradan qaldırılar"***

Uca Allah, insanı kamalı axtaran fitrətlə yaratmışdır. Beləcə, mütləq kamalın axtarışında olmasını istəmişdir. Kamala çatması üçün də ona ağıl nurunu bəxş etmiş, Peyğəmbərləri və Əhli-beyt imamlarını isə onun yol göstəricisi və nümunəsi etmişdir. Kamala çatmaqda səhv buraxılmaması üçün nümunə olaraq təqdim etdiyi o uca şəxsləri ismətlə təchiz etmişdir. Ta ki, onların sözləri və etdikləri, heç bir səhv şübhəsinə yer olmadan etibarlı kamal yolunu işıqlandırsın.

Kamala çatmağın yeganə yolu isə, ibadətləri yerinə yetirmək və uca Allaha itaət etməkdir. İnsana verilən ağılın müstəqil olaraq ibadətlərin mahiyyətini idrak etməsi və necə ediləcəyini bilməsi mümkün olmadığından, insan, hidayət öndərlərinə müraciət etmə və əskiksiz olaraq onların söz və əməllərini tətbiq etməyi zəruri bilmişdir. Buna görə, ən yaxşı ibadətlərdən biri olan və uca Allah ilə əlaqə yaratmağın ən gözəl yolu duada da günahsız öndərlərin, Rəsulullah (s) və Əhli-beyt İmamlarının üsul və hərəkətinə diqqət olunmalıdır. Bu üsulların bəzisini nəzərinizə çatdırırıq:

**1- Duadan əvvəl Allahı tərifləmək:**

İmam Cəfər Sadiq (ə) belə buyurmuşdur: "Sizlərdən biri hər hansı bir istəkdə olsa (diləyinin reallaşması üçün Allaha dua etdikdə), əvvəl Allahı tərifləməlidir. Çünki Sultandan bir şey istəyən kimsə, əlindən gəldiyi qədər əvvəl ən gözəl sözləri dilə gətirir (sonra istəyini dilə gətirir). "

Əhlibeyt İmamları Allahın hüzuruna yönəlib dua etdikdə, duaya Allahı mədh etməklə başlayardılar. Necə ki, İmam Əli (ə) hər cümə axşamı axşam və şaban ayının on beşinci gecəsində oxunması tövsiyə olunan məşhur Kumeyl duasına, uca Allahın geniş rəhmətini və sonsuz gücünü dilə gətirərək başlamışdır. Eyni şəkildə İmam Məhəmməd Baqir (ə) da Simat duasının başlanğıcında Allahı tərifləyərək belə dua etmişdir: "Allahım! Səni əzminlə çağırıram. O ad ki, göylərin qapısının açılması üçün oxunar..." İmam Zeynəlabidin (ə) da Səhifəyi Səccadiyənin beşinci duasına belə başlamışdır: "Ey əzəmətli möcüzələri tükənmək bilməyən uca Allah!..."

**2- Duaya salavatla başlamaq:**

Duaya başlamazdan əvvəl Peyğəmbərə (s) və Əhli-beytinə salavat söyləmək əhəmiyyətlidir. Çünki salavat elə bir duadır ki, hər vaxt uca Allahın dərgahında qəbul olunmuşdur. Salavatla birlikdə edilən dua da qətiliklə qəbul olunacaqdır. Çünki Allah Təala, duanın bir qismini qəbul edib bir qismini qəbul etməkdən pak və ucadır. İmam Cəfər Sadiq (ə) belə buyurmuşdur: "Hər kim əziz və cəlil olan Allahdan ehtiyacını diləmək istəsə, Məhəmməd və Əhli-beytinə salavat göndərməklə başlasın, sonra Allahdan ehtiyacını diləsin, sonunda da Məhəmməd və Əhli-beytinə salavat göndərsin. Çünki əziz və cəlil olan Allah, duanın başını və sonunu qəbul edib ortasını rədd etməkdən daha ucadır. Çünki Məhəmməd və Əhlinə göndərilən salavat, örtülü qalmaz."

**3- Allahın nemətlərini dilə gətirmək:**

Əhli-beyt İmamları dua etdikdə, istəklərinə uyğun olaraq Allahın nemətlərini sayır, daha sonra istəklərini dilə gətirərdilər. Necə ki, İmam Əli (ə) Kumeyl duasında uca Allahın mənəvi nemətlərini xatırlatmaqda; "Allahım! Nə qədər pisliklərimi gizlətdin! Nə qədər səhvlərdən məni qorudun! Nə qədər layiq olmadığım gözəl tərifləri mənim üçün xalq arasında yaydın!..." buyurmaqdadır. İmam Zeynəlabidin (ə) də Ramazan ayı gecələrində oxunması tövsiyə edilən Əbu Həmzə Sümali duasında

belə buyurmuşdur: "Allahım! Bilirəm ki, ümidli olanların istəklərini qarşılamağa hazırsan, narahat olanların halını gözləməkdəsən..."

**4 - Ağlayaraq və yalvararaq dua etmək:**

Necə ki, bir ayədə belə buyrulur: "Rəbbinizə yalvararaq və gizlicə dua edin. " İmam Cəfər Sadiq (ə) belə buyurur: "Uca Allah, Musaya belə vəhy verib: Mənim hüzurumda dayandığın zaman, möhtac və zəlil kimi dayan."

İnsan, həqiqi mənada kasıbdır. Çünki sahib olduğu hər şey Allahındır. Canı, malı, zahiri və bütün nemətlər Allahdandır. Buna görə, insan dua edərkən həqiqətən dilənməkdədir. Necə ki, Allah Elçisi (s) Allaha yalvarar və dua edərkən, yemək istəyən bir səfil və miskin kimi əllərini yuxarı qaldırardı.

**5- Cəm şəkildə dua etmək:**

İslam dinində camaata və birliyə çox böyük əhəmiyyət verilmişdir. Hətta namaz kimi fərdi ibadətlərin belə camaatla qılınmasının daha fəzilətli olduğuna vurğulanmış, savabının qat-qat çox olduğu deyilmişdir. Dua da camaatla edildikdə, qəbul olunmağa daha yaxın olur. Necə ki İmam Cəfər Sadiq (ə) belə buyurmuşdur: "Dörd adam bir araya gəlib hər hansı bir şey haqqında Allaha dua etsələr, mütləq razılıq edildiyi halda ayrılarlar. " Bu səbəblə İmam Məhəmməd Baqir (ə) hər hansı bir çətinliklə qarşı-qarşıya qaldıqda, evdəki qadın və uşaqları toplayıb, dua edərdi, onlar da amin deyərdilər.

**6- Başqalarına dua etmək:**

İslam elə bir dindir ki, insanlığın fərdi və ictimai bü-tün istiqamətlərini diqqətə alıb. Başqalarına köməkçi olmağı hər şəxsin, hətta hər müsəlmanın əhəmiyyətli vəzifələrindən biri saymışdır. Necə ki Allah Elçisi (s) belə buyurmuşdur: "Hər kim hər səhər müsəlmanların başına gələn çətinliklərə əhəmiyyət verməsə, müsəlman deyil. "

Bu istiqamətdə Rəsulullah (s) buyurmuşdur ki: "Sizdən biri dua edəndə, hamı üçün dua etsin. Çünki bu dua, razılığa daha yaxındır. Hər kim özünə dua etməmişdən əvvəl qardaşlarından qırx nəfər üçün dua etsə, o dua, həm onlar, həm də özü haqqında müstəcəb olar." İmam Rza (ə) dua edərkən belə buyurardı: "Allahım! Dünyanın hər yerindəki mömінləri bağışla. "

İmam Həsən (ə) də anası Hz.Fatimənin (s.ə) ibadətilə əlaqədar belə buyurar: "Bir gecə anam səhərə qədər dua və ibadətlə məşğul idi. Müsəlmanlara və qonşulara dua edir, amma özü üçün əsla dua etmirdi. Səhər olunca anamdan elə etməsinin səbəbini soruşdum. Buyurdu ki: Əvvəl qonşu, sonra ev əhli."

**7- Gecə vaxtı dua etmək:**

Gecənin qaranlığı ən gözəl fürsətdir dua etmək üçün, uca Allah ilə münacat üçün, ibadət üçün. Xüsusilə bütün gözlərin rahat bir yuxuya getdiyi gecənin yarısı... Necə ki İmam Zeynəlabidin (ə) gecə yarısında, bütün insanların yatdığı saatlarda dua edərdi. İmam Məhəmməd Baqir (ə) də gecə namazından sonra dua edərdi.



**8- Namazlardan sonra dua etmək:**

Namaz, ruhun meracı və qulun Allah ilə əlaqəsidir və əlaqə halında istəyi dilə gətirmək üçün ən gözəl fürsətdir. Bu baxımdan İmam Cəfər Sadiq (ə) namazdan sonra əlini duaya qaldırardı. İmam Zeynəlabidin (ə) də günorta namazından sonra dua edərdi. İmam Cəfər Sadiq (ə) belə buyurur: "Üç vaxtda dualar Allahın nəzərindən kənarda qalmaz: Fərz namazının ardından, yağış yağdığı zaman və yer üzündə Allahın möcüzəsi ortaya çıxdığı zaman. "

**9- Müqəddəs vaxtlarda dua etmək:**

Əhli-beyt İmamları, duanın qəbul olmasına səbəb olan müqəddəs zaman və saatlara çox əhəmiyyət verərdilər və istəklərini o saatlarda Allahın hüzuruna təqdim edərdilər. Necə ki Əhli-beyt İmamlarından nəql edilən duaların bir çoxu müəyyən bir vaxta xasdır. Məsələn İmam Zeynəlabidin (ə) mübarək Ramazan ayının gecələrində hər gecə namazından sonra Əbu Həmzə Sümali duasını oxuyardı. İmam Musa Kazım (ə) Məbəs Bayramında (Peyğəmbərimizin peyğəmbərliyə seçildiyi gün) dua oxuyardı. İmam Əli (ə) Şaban ayının on beşinci gecəsində səcdə halında Kumeyl duasını oxuyardı.

**10- İsrar etmək:**

Dua etmənin bir başqa ədəbi də, davamlı ilahi mövqeyə yönəlmək və istənilən şeyi almaq üçün israr etməkdir. Hədislərdə bu barədə tövsiyə edilmiş, "Əziz və cəlil olan Allahdan ehtiyacını diləyən... duada israr edən qula Allah rəhmət etsin." buyurulmuşdur. Bir hədisdə də İmam Məhəmməd Baqirdən (ə) belə nəql edirlər: "Allaha and olsun ki mömin bəndə əziz və cəlil olan Allahdan ehtiyacını diləməkdə israr etsə, mütləq ehtiyacı aradan qaldırılar."

Nərgiz Kazımlı (Faktxeber internet qəzeti)

*Ayətullah Cavad Amuli:*

# "BU GÜNÜN BƏŞƏRİ ƏXLAQ ÇATIŞMAMAZLIĞINDADIR"



Ayətullah Cavad Amuli əxlaq simpoziumunda demişdir: "Bugünkü bəşərdə elmi çatışmamazlıq əlbəttə ki, mövcuddur. Ən azı Farabi elmi səviyyəsindədir. Ancaq ən çox problem yaradan məsələ - əxlaqın çatışmamasıdır. O şey ki, problemi aradan qaldırır - əxlaqi vicdandır. Əgər əxlaq özünü göstərərsə, elmin çatışmamazlığından əməli əziyyət çəkmərik. Bəzi əməli olmayan alimlərə etiraz edərdilər ki, siz ki, bunu bilirdiniz, niyə filan işi görürsünüz? Siz ki, filan ayəni oxumusunuz, tədris etmisiniz, təfsir etmisiniz, niyə naməhrəmə baxırdınız? Siz ki, indi dərsdən çıxıb gəlmisiniz, niyə rüşvət alırsınız? Belə ki, elm bu problemləri həll etmir. Bizim daxilimizdə bayırımızda olduğu kimi dörd cihaz işləyir. Yəni xaricimizdə dörd qrup olduğu kimi, daxilimizdə də dörd qrup vardır. Xarici nəzərdən gözümüz, qulağımız, əl və ayağımızın idrakı vardır. Bəzi insanların həm xarici idrakları və həm də əməlləri sağlamdırlar. Yəni yaxşı görür, yaxşı eşidir, yaxşı iş görür və hərəkət edirlər. İkinci qrup o insanlardır ki, idrakları güclüdür. Yaxşı göz və qulağa malikdirlər. Ancaq əl və ayaqları iflicdir. Üçüncü qrup o insanlardır ki, əl və ayaqları çox güclüdür, ancaq göz və qulaqları kor və kardır. Dördüncü qrup isə hər şeydən məhrum olanlardır. Həm idrak və həm də hərəkət üzvləri iflicdir. Əgər kimsə ilan və ya əqrəbi görübsə, həm idrakları və həm də əməli hərəkətləri güclü olmuşdur, deməkdir. Ancaq kimsə əl və ayağını başqasına tapşırarsa, başqası da onun əl və ayağına zəncir vurarsa, ilan və əqrəb onu sancar. Etiraz edəndə ki, məgər görmürsən, etirazımız qəbul olmaz. Ona görə ki, göz və qulaq qaçmaz, əl və ayaq qaçar. Əzm, iradə, niyyət və ixlas daxili cihadda həmişə bürhanın qarşısında qərar tutur. Əgər nəzəri əql bunları ram edə bilərsə, insan alim olar. Əgər alim olmazsa, mübahisə və cədəl edən olar. Çünki vahimə ilə xəyal qüvvəsi yerini dəyişmişdir. Düşüncə cihadı meydanında əgər nəzəri əql bu qrupların rəhbərliyini öhdəsinə götürə bilərsə, vahimə və xəyal qüvvəsi bərəkət tapar. Çünki cüzi məsələlərə onlar baxırlar. Mövzuları ixtiyarımıza qoyurlar. Düşüncə cihadında qələbə çalmaq üçün məntiq lazımdır. Ancaq əxlaq məsələlərində məntiqin əlindən heç nə gəlmir. Qəti surətdə demək olar ki, məntiq çox güclüdür. Bütün səngərləri hidayət edə bilər ki, vahimə və xəyal qüvvəsinin qarşısını necə almaq olar. İşləri nəzəri əqlə necə ötürmək olar. Ancaq nəfsin cihadında qəzəb əməli əqlin qarşısını alır. Əməli əql gərək qərara alsın və iradə əzmində olsun, ancaq onu zəncirləyərlər. Bu halda o zaman ki, dərsdən çıxar, rüşvət alar, çünki əzmi yerinə zəncirlənmişdir. Əməlsiz alim elmi cihad cəbhəsində münaqişə etməz. Bu insan tədris edər və yaxşı bürhan təqdim edər. Ancaq göz və qulağından heç bir şey gəlməz. Qaçan şeyin əl və ayağı olur. Ancaq ayaqları bağlıdır. Bəzilərinin əməli əqilləri azaddır, nəzəri əqilləri də azaddır. Onlar alimlərdirlər. Bəzilərinin isə nəzəri əməlləri azaddır, ancaq əməli əqilləri bağlıdır. Bunlar fasiq alimlərdir. Bəziləri isə hər ikisindən məhrumdurlar, yəni onlara nə desən edərlər, ancaq başa düşmürlər ki, bu işi nə üçün edirlər. Bəziləri də cahildirlər, hər ikisində problemləri vardır. Bədənlərində olduğu kimi daxillərində də dörd qrupdurlar. Əxlaq da onun üçündür. Başqa bir məsələ isə budur ki, Millətlər Təşkilatı illik iclas keçirir və insan haqlarını müəyyən edir. Ancaq Millətlər Təşkilatının deməyə sözü yoxdur. Millətlər Təşkilatında şərh edilən bu 30, 40 maddədə azadlıq, təhlükəsizlik, əhdinə vəfa etmək, xəyanətdən çəkinmək kimi kəlmələr işlənir, ancaq əmələ gələndə isə əşya və şəxslərin ardınca düşürlər. İlk döyüş burada başlayır. Deyəlim ki, ədalət, azadlıq, istiqlal, əhdinə vəfa etmək, əmanət - bunların hamısı haqdır. Bunların mənaları aydındır. Ancaq əşyalar, kişi və qadınlar haradadır? Bunların elmi yolu yoxdur. O zaman ki, mənbə yoxdur, məbdə də olmaz. Bir neçə müştərək əxlaqi məsələlər vardır. Onlar əxlaqlarını ədəbdən alırlar. Ancaq ədəb əxlaq deyildir. Sizin ki, mənbəniz yoxdur, insanşünaslığınız, cahanşünaslığınız yoxdur. Ədalət əxlaqi məsələlərdən biridir, bəs onu haradan istəyirlər. Bu, gərək sübut edilsin. Onların nə əxlaq fəlsəfəsində və nə də hüquq fəlsəfəsində əlləri doludur. Ona görə də elmi mərkəz olan Qum bu bilikləri dünyaya çatdırmalıdır".

(Həvzəh)

## Müsəlman alimləri və onların Avropaya təsirləri



*(Əvvəli ötən sayımızda)*

Yazımızın əvvəlki bölməsində qeyd etmişdik ki, müsəlman alimlərinin əsərləri tərcümə edilərək elm adamlarının ixtiyarına verilmişdi. Bu isə nəticədə İslam alimlərinin Qərbin mədəni həyatına geniş miqyaslı təsir göstərmələrinə səbəb olmuşdu. İbn Sina, İbn Rüşd, Fərabi, Razi, İdrisi və s. alimlər Qərbin elmi dünyagörüşünün formalaşmasında əvəzsiz rol oynamışlar. Bu rol barəsində danışmazdan öncə bir məsələyə də toxunmağın xüsusi əhəmiyyəti vardır. Bildiyimiz kimi, elmin və mədəniyyətin daha geniş ərazilərə yayılması üçün kitabçılıq işinin də təşəkkül tapmasına ehtiyac duyulur. Orta əsrlər dövrünün müsəlman şərqində bu problem həll olunduğu üçün elmin və mədəniyyətin də geniş surətdə yayılmasına səbəb olmuşdu. Belə ki, mətbəə işi İspaniyadan Fransaya, Fransadan isə bütün Avropa ərazisinə yayılmışdır. Əndəlüs-Əməvi hökmdarı 3-cü Əbdürrəhmanın katibi dövlət sənədlərini evində yazdıqdan sonra xüsusi bir çoxaltma mərkəzinə göndərirdi. Həmin mərkəzdə sənədlər mətbəə ləvazimatları vasitəsilə çoxaldıldıqdan sonra hökümət dairələrinə və məmurlara paylanırdı. Lakin bunu da qeyd etmək yerinə düşərdi ki, mətbəəçilik işinin geniş şəkildə təşəkkül tapması üçün mətbəə kağızına da ehtiyac duyulurdu ki, bu ehtiyac da aradan qaldırılmışdı. Məhz bu problemin də olmaması səbəbilə kitabçılıq işi də müsəlman şərqində sürətli şəkildə inkişaf etmişdi. İ.Hami Danişmənd yazır:

> "İbtidai və qaranlıq qərb xristianlığının ümumi mədəni baxımdan bir az aydınlaşmağa başlaması miladın 10-14-cü əsrləri arasında 400 ilə yaxınlaşan uzun bir dövrü işğal etmiş çaşdırıcı bir vəziyyətdir. Bunun səbəbi isə, Qərbin fikir və elmin yeganə yayılma vasitəsi olan kağızı Şərqdən əldə edərək bu qaranlıq aləmi bir az aydınlatmağa nail olmasıdır. Qərbin alim və mütəxəssisləri də bu məsələdə müttəfiqdirlər."

Bildiyimiz kimi, miladın 105-ci ilində Çində ipəkdən kağız istehsal olunmağa başlansa da, Qərbdə ipək sənayesi mövcud olmadığından və həm də ipəyin bahalı olması səbəbindən ondan kağız sənayesində istifadə edilməmiş və nəticədə qeyri-mümkün bir durum əmələ gəlmişdi. Avropalı müəlliflərdən olan Risler özünün "La civilisation Arabe" adlı 1955-ci ildə nəşr olunmuş kitabında bunları yazır: " İslamiyyətin Avropaya gətirdiyi ən xeyirli nemətlərdən birinin də kağız olması barədə heç bir şübhə yoxdur. Dana dərisi və s. dərilərdən hazırlanan materiallarla yanaşı, perqamentin əvəzinə kətandan kağız hazırlamağı ərəblərin Səmərqənddə öyrəndikləri məlumdur. Sonra onlar kətanı Əlcəzair və Misirdə bol-bol yetişən pambıqla əvəz etməyi düşündülər. Nəticədə kağız sənayesi sürətli və fövqəladə bir şəkildə inkişaf etdi. Bunun səbəbi isə elmi məlumat iqtibasının başlıca zəruri şərti olan kitab emalatını kağızın son dərəcə asanlaşdırmış olmasıydı. Perqament və papirusdan hazırlanmış kitabların qiyməti çox baha olduğundan mübaliğəyə qapılmadan söyləmək mümkündür ki, ucuz kağızın ortaya çıxması yeni bir dövrə başlanğıc təşkil etmişdir. Bununla bərabər, yeni kəşfin Qərbə yayılması geniş zaman tələb etdi, çünki kağızın dünyaya paylan-

masında bir mənbə nöqtəsi təşkil edəcək Səmərqənd 712-ci ildə fəth olundu. İlk emalatxana isə 794-cü ildə Bağdadda quruldu. Yeni növ kağızın istehsalına Misir 900-cü ildə başladı. Mərakeşdə isə bu prosses 1100-cü ilə təsadüf edir. Avropanın həqiqi kağız üzərində yazılmış ilk yazılı sənədi Siciliya kralı Rocerin xanımı tərəfindən yunan və ərəb dillərində yazılmış əmrnamə olmuşdur. Həqiqətə gəldikdə isə söyləmək mümkündür ki, 12-ci əsrdə Qərbi Avropanın kağıza olan ehtiyacını İspaniyada fəaliyyət göstərən Xativa fabriki ödəyirdi. Şərqi Avropa isə kağızı şərq ölkələrindən alırdı. Kağız emalı get-gedə İspaniyadan Fransaya, Siciliyadan da İtaliyaya keçdi.

Vill Durant da "Histoire de la civilsation" külliyyatının "Lage de la foi" seriyasında bunları yazmışdır: "İslam aləmində ilk kağız emalatxanası miladın 794-cü ilində Harun ər-Rəşidin vəziri olan əl-Fəzl tərəfindən 794-cü ildə Bağdadda açılmışdır. Emal üsulu ərəblər vasitəsilə Siciliya və İspaniyaya nəql olundu və oradan isə Fransa və İtaliyaya keçdi.707-ci ildə Məkkədə, 800-ci ildə Misirdə, 950-ci ildə İspaniyada, 1100-ci ildə Bizansda, 1102-ci ildə Siciliyada, 1228-ci ildə Almaniyada, 1309-cu ildə İngiltərədə yeni üsulla kağızın istehsal edilməsinə başlanmışdır. Bu yeni icad, getdiyi hər yerdə kitab emalını asanlaşdırdı."

Məhz mətbəəçilik işinin sürətlə inkişaf etməsi kitab nəşrini də gücləndirdi. Yəqubinin söylədiyinə görə 891-ci ildə yalnız Bağdad şəhərində 100-dən çox kitab dükanı olmuşdur. Bu fakt isə öz-özlüyündə müsəlman Şərqində həm kitaba olan tələbatdan, həm də ki kitab satışının geniş şəkildə rəvac tapdığından xəbər verir.

Avropada müsəlman alimlərinin fikirlərinin geniş şəkildə yayılmasına şərait yaradan səbəblərdən biri də şübhəsiz ki, onların əsərlərinin latın və yunan dillərinə tərcümə edilərək kitab şəklində çap olunması oldu. Lakin, qeyd etdiyimiz kimi onlar bununla kifayətlənməmişdilər. Həmin kitablar universitetlərdə də tədris olunurdu.

Həmin alimlərdən biri İbn Sinadır. İbn Sinanın Avropanın elmi həyatına təsiri iki istiqamətdə olmuşdur: fəlsəfə və tibb sahəsində. Onun əsərlərindən biri olan "Qanun", De Kremon tərəfindən 12-ci əsrin sonlarında latın dilinə tərcümə edilmişdi. De Kremon sonra isə Fransua və Antuan adlı iki tərcüməçi "Şifa" nı xülasələşdirərək dərs kitabı halına saldılar. Trikot-Royer yazır: "8 sentyabr 1309-cu ildə Papa 5-ci Kleman universitet proqramını yenidən təsdiq edərkən "Qanun"-un müxtəlif bölmələrini tədris etmək üçün fakultə daxilində ayrı-ayrı tədqiqatçı qruplar yaratmışdı. Tələbələr İbn Sinanın fikirlərini başa düşməkdə çətinlik çəkdikləri üçün, onların xahişləri nəzərə alınaraq 17-ci əsrin ortalarından etibarən artıq onun əsərlərinin tədrisi dayandırıldı." (Trikot Royer, İbn Sina, tibb bölməsi, 2-ci etüd.) " Les Pensedes L'Islam" əsərinin 4-cü cildinin, 84-cü səhifəsində isə bunları oxumaq mümkündür: "İbn Sina Avropada İbn Rüşddən daha əvvəl tanındı. Onun əsərlərinin ilk tərcüməçiləri isə yepiskop Dominik və Seviliya hahamı Ruan olmuşdur. Onlar baş yepiskop Raymondun rəhbərliyi altında fəaliyyət göstərmişdir. Bu fəaliyyət 1130-1150-ci illərdə davam etmişdir. Tərcümələri yəhudilər edir, xristianlar isə onları çapa hazır vəziyyətə gətirirdilər." "Türk təfəkkür tarixi" adlı kitabda isə L.Qotyeyə istinad edilərək bunlar söylənilmişdir: "İbn Sinanın fəlsəfə sahəsindəki geniş təsirini anlamaq üçün bütün qərb fəlsəfi tarixində Avisenizmin (Avisenna-Qərbdə İbn Sinaya verilən addır, O.Abdullah) müstəqil bir xətt olaraq göstərildiyini görmək kifayətdir. İbn Sinaçılıq ilə İbn Rüşdçülük, yəni irrasionalizm ilə rasionalizm Qərbdə əsrlərcə bir-birilə mübarizə apardı. Ağla söykənən məzhəb ilə ağla əsaslanmayan məzhəbin bu mücadiləsi hələ də canlı və təzə şəkildə öz varlığını qoruyub saxlayır." (Türk təfəkkür tarixi, c.1, səh.245) Onun "Həyy ibn Yəkazan" adlı hekayəsi də Qərbdə yazılan bir sıra bədii əsərlərə stimul olmuşdur.

Qərbdə "Avisenna" kimi tanınan Əbu Valid Muhəmməd ibn Muhəmməd ibn Rüşd də Avropa mədəniyyətində izləri görünən mütəfəkkirlərdəndir. Paris Milli Kitabxanasında onun fətvalarından ibarət zəngin kolleksiya saxlanılır. O, ata və babası kimi Qurtuba qazısı vəzifəsini icra etmişdir. İbn Rüşd İbn Tüfeylin dəvəti ilə Mərakeş sarayına getmiş və onun təklifini qəbul edərək Aristotelin əsərlərini şərh etməyə başlamışdır. Onun Aristotelin əsərlərinə yazdığı şərhlər üç qismdir: böyük təfsir, orta təfsir və bir də təfsirlər və təhlillər. Bunlar Aristotelin bütün əsərlərini əhatə edir. Onun əsərlərindən bir çoxu Oksfordda Eskorial adlı kitabxanada saxlanılır. Maykl Skot İbn Rüşdü latın dilli müəlliflərə tanıdan ilk şəxs olmuşdur. İbn Rüşdün dövrümüzə ərəb dilində çox az əsəri gəlib çatmışdır. Lakin, latın və ibrani dillərində onun kifayət qədər əsərinə rast gəlmək mümkündür. İngilis alimi Rocer Bekon onun göy və aləm haqqındakı təfsirinin və ruh haqqındakı əsərinin 1320-ci ildə nəşr edilməsini, o dövrün ən böyük hadisəsi adlandırmışdır. Ernest Renan " Averroes et L Averroisme" adlı 1886-cı ildə Parisdə nəşr olunan kitabında İbn Rüşdün o dövrün yəhudi alimlərinin nəzdində olan qiymətindən də söhbət açmışdır. İbn Rüşdün əsərləri ilk olaraq 13-cü əsrdə Paris universitetində və Fransiskan məktəbində tədris olunmağa başlanmışdı. 14 və 15-ci əsrlər isə onun Avropada geniş olaraq öyrənildiyi dövrlərdir. Aleksandr de Hales onun fikirlərini yayan ilk sxolastik mütəfəkkir olaraq qəbul edilir. Asinin apardığı tədqiqatda bu fikirə yer verilmişdir ki, katolik dünyasının ən böyük fikir alimi hesab olunan S.Tomasın əsərlərində İbn Rüşdün təsiri açıq-aşkar hiss olunur." (Michel Asin Palocoi, El Averroisme teologico de Santo Thomas de Aquino Huellas del İslam, Madrit 1941)

İbn Rüşdün kitablarından tədris vəsaiti kimi istifadə olunması Paduva universitetində 18-ci əsrin ortalarına qədər davam etmişdir. Boloniya və Venetsiya universitetlərində də tələbələr uzun müddət onun düşüncələri üzərində öz elmi bazalarını qurmuşdular. İbn Rüşdün təsiri o dərəcədə artmışdı ki, 1311-ci ildə Vyana Kilsə Məclisindən onun əsərlərinin məhkum olunması və onun fikri cərəyanının qarşısının alınması üçün hərbi əmrnamə verilməsi tələb olunmuşdu.

Fərabinin Avropanın elmi-mədəni həyatına təsiri, həm

elmlərin təsnifatlaşdırılması sahəsində, həm də yazdığı bir sıra əsərlərin sayəsində gerçəkləşmişdir. Belə ki, həmin dövrdə Avropada elmlər Trivium və Kuatrivium adlandırılan iki qrupda təsnifatlaşdırılmışdı. Triviuma nəhv, məntiq və bəyan elmləri, Kuatriviuma isə riyaziyyat, həndəsə, musiqi və astronomiya daxil idi. 13-cü əsrdən etibarən Fərabinin elmləri 3 yerə ayıran təsnifatından istifadə olunmağa başlandı. Onun üslubunda elmlər fiziki, riyazi və metafiziki elmlərə ayrılmışdı. Fərabi həm də musiqi sahəsində müsəlman aləmində ilk kitabı qələmə almışdır. Onun həmin əsəri " Kitabul-musiqi əl-əkabir" adlanır. Onun bu əsərinin əldə olan nüsxələri Madrid və Oksfordda saxlanılır. 1934-cü ildə Qlazqoda Fərabinin musiqi haqqında yazıları H.G.Farmer tərəfindən nəşr edilmişdir. Onun musiqiyə həsr etiyi digər əsər isə İstanbulda Kılıç Ali Paşa kitabxanasında saxlanılır.

İbn Sinayla yanaşı, Muhəmməd ibn Zəkəriyyə Razi də Avropanın tibb sahəsində ehtiyaclarını qarşılamışdır. Seyyid Hüseyn Nəsrə görə isə əslən Rey şəhərindən olan Razi tibbdə İbn Sinadan sonra ikinci şəxs olsa da, müşahidələr aparması baxımından ondan daha üstün mövqeyə malikdir. Razinin əsərlərilə bağlı tədqiqat aparan Əl-Biruniyə görə, onların sayı 184-dür. "Əl-Havi" adlı tibbə aid əsəri həcminə görə müsəlman alimlərinin bu sahədə yazdıqları əsərləri çox geridə qoyur. Onun Qərbə bu sahədəki təsirləri 19-cu əsrə qədər hiss olunmaqda davam edirdi. ( Trikot Royer, İbn Sina, 1-ci fəsil, etüd 2) Muhəmməd ibn Zəkəriyyə Razinin əsərləri 1509-cu ildə Venetsiyada, 1528,1548-ci illərdə Parisdə nəşr olunmuşdur. Çiçək xəstəliyinə həsr etdiyi əsəri 1745-ci ildə yenidən çap edilmişdir. Əl-kimyaya aid olan əsərləri, xüsusilə, "Kitabu Sirrul-Əsrar" da tanınmış əsərləri sırasındadır. Onun "Çiçək və qızılca" adlı risaləsi Qərbin elmi dairələrində "De Pestilentia" və yaxud da "De Peste" adı ilə tanınır.

Avropalıların tanıdığı ilk müsəlman coğrafiyaçısı İdrisidir. Raymond onun haqqında "Coğrafiyada həqiqi bir abidə qurdu" demişdir. Raymond həm də onun Strabonla eyni səviyyədə olduğunu bildirmişdir. Onun coğrafiyaya aid əsərinin Avropadakı nəşri 17-ci əsrin əvvəllərinə təsadüf edir. Nəşrin dili latınca idi. Lakin müəllifin adı onlara məlum olmadığına görə nəşrdə müəllifin adı verilməmişdi. 1158-ci ildə Siciliya kralı Rocer onu öz sarayına dəvət edir. Kral ona böyük ərazilərin xəritəsini çəkdirmək niyyətinə düşür. İdrisi isə o zaman elmə məlum olan ərazilərin xəritəsini hazırlayaraq onu 800 mark gümüş qalınlığında olan taxta masaya ərəb dilində nəqş etdirmişdir. O həm də, avropalı müəlliflərin 3 əsr ərzində üzünü çıxardaraq istifadə etdikləri coğrafiya dərsliyinin müəllifidir.

Məqaləmizdə adını çəkəcəyimiz digər bir alim isə Alhazen olaraq tanınan İbn Heysəmdir. İbn Heysəm isə müsəlman fiziklərin ən böyüyü və ən məşhurudur. 965-ci ildə Bəsrədə doğulan alim riyaziyyat, fizika, astronomiya və tibb sahəsində 200-ə yaxın əsər qələmə almışdır. Ən geniş həcmli əsəri isə " Optika"dır. Rocer Bekonun, Vitelo və Kelplerin optika barəsindəki tədqiqatlarına bu əsərin çox böyük təsiri olmuşdur.

Nəsrəddin Tusinin elmə verdiyi töhfələrin çox olmasına



baxmayaraq, burada onları qeyd etmədən keçəcəyik. Çünki məqaləmizin mövzusundan uzaqlaşmış olardıq. Bunu bildirməklə kifayətlənirik ki, Tusinin əsərləri orta əsrlər dövrünün sonu və renessans dövrünün əvvəllərində avropalı oxucular tərəfindən böyük maraqla qarşılanmışdır.

Nəticə

Dinimizə qarşı hər sahədə olduğu kimi, mədəni prizmada da hücumlar aparılır. Onların saxta iradlarına cavab vermək üçün mütləq dinimizdən və onunla bağlı olan hər şeydən xəbər tutmalıyıq. İslam dinini elm və mədəniyyətdən ayrı təsəvvür etmək və onu cahillərin dini olaraq cəmiyyətə təqdim etmək əlbəttə ki, qərəzli və xəbis niyyətdən xəbər verir. Müsəlmanların hal-hazırkı elmi və mədəni durumu Qərbdən geri qalsa da, bunu dinin adına yazmaq çox böyük ədalətsizlikdir. " Elm təhsil edin, çünki təhsil, bizim düşmənlərə qarşı silahımızdır" söyləyən din, heç cəhaləti təbliğ edərmi? Sadəcə, müsəlmanların dinə bağlılıqlarının azalması onların elmi-mədəni həyatına da öz mənfi təsirlərini qoymuş, müsəlmanlara tənbəllik hökmranlıq etməyə başlamışdır. Əgər biz yenidən özümüzə qayıtsaq, dəyərlərimizdən ikiəlli yapışsaq, o zaman yenidən əvvəlki səviyyəmizə yüksələ biləcəyik. Çünki dinimiz hər bir müsəlman kişi və qadına elm öyrənməyi vacib buyurmuşdur. Elm isə həm də mədəni zəfərin açarıdır. Müsəlmanlar dinlərinə sahib çıxdıqları təqdirdə orta əsrlərdə gerçəkləşdirdikləri intibahı yenidən gündəmə gətirə biləcəklər. Qərb orta əsrlərin sonunda dindən uzaqlaşmaqla inkişaf etdiyi halda, biz dindən uzaqlaşmaqla tənəzzülümüzü reallaşdırdıq. Halbuki, "Yer üzündə insanlığı elmə sövq edən və onu hətta (mənası anlaşılmayan-O.Abdullah) ibadətdən belə üstün tutan yeganə din, İslam dinidir. Buna görə də İslamiyyətə "elm dini" deyilməlidir. Müsəlmanlıq irqlər, millətlər və fərdlər arasında mütləq bir bərabərlik elan etmiş olduğu halda, Qurani-Kərim yalnız alim və cahili bərabər tutmamış və bu qəti hökmünü "Zumər" surəsinin 9-cu ayəsində bu ülvi ibarəsi vasitəsilə bəşəriyyətə elan etmişdir: "Bilənlə bilməyən heç bərabər olarmı?!" (İsmayıl Hami Danişmənd)

**Orxan Abdullah** ***(Hilal.az)***

# İNSANI GÜNAHDAN SAXLAYAN AMİLLƏR



*(Əvvəli ötən sayımızda)*

***İnsanı günahdan qoruyan amillər aşağıdakılardan ibarətdir. Ötən sayımızda həmin amillərdən 5-ni dərc etmişdik. Bu sayımızda isə yazının davamı olaraq digər amilləri və günahın müalicə yolunu siz oxucuların nəzərinə çatdırmağı lazım bilirik.***

1. Müxtəlif işlərdə fikirləşmək.
2. Allaha iman gətirmək və onun hər yerdə nəzarətçi olmağına əqidəli olmaq.
3. İnsanın özünü tanıması və öz şəxsiyyətinə qarşı diqqətli olması.
4. Axirət aləminə və qiyamət gününün hesab-kitabına əqidə.
5. İşlərin Peyğəmbərə və İmamlara təqdim edilməsi.
6. Ölümü yaxın bilmək və onu həmişə yada salmaq.
7. Allahdan həya etmək və günahın tə'sirindən qorxmaq.
8. Düzgün ibadət etmək.

### 6. ÖLÜMÜ YADA SALMAQ

Şübhəsiz, insanı günahlardan qoruyan bir amil də həmişə ölümü yada salmaqdır.

İslam Peyğəmbəri (s) buyurur:

«Ölümü tez-tez yada salın. Çünki bu iş günahları təmizləyir».

İmam Əli (ə) buyurur:

«Ölümlə rabitə sizə kölgənizdən də möhkəmdir». (Yə'ni ölümlə əlaqəniz sizə kölgənizdən də yaxındır).

### 7. GÜNAHLARIN TƏ'SİRİNDƏN QORXMAQ VƏ ALLAHDAN HƏYA ETMƏK

Günahları təmizləyən amillərdən biri də günahların tə'sir və nəticəsindən qorxmaqla Allahdan həya etməkdir. İmam Sadiq (ə) buyurur: "Bir şəxsin ki, Allahın onu gördüyündən, söhbətini eşitdiyindən və bütün gördüyü pis, yaxşı işlərdən xəbərdar olmasından yəqinliyi var, o şəxs pis işlər görməz və öz Allahından həya edib, günahlardan qorunar."

O Həzrət başqa hədisdə buyurur:

«Allahdan elə həya et ki, elə bil onu görürsən və sən Onu görməsən də O səni görür».

İslam Peyğəmbəri (s) buyurur:

«Mö'min günahı belə təsəvvür edir: Sanki böyük bir daşın altında durub və o daşın uçmağından qorxur. Amma kafirin günaha münasibəti onun burnunun yanından keçən bir milçəyin vızıltısına bənzəyir».

İmam Əli (ə) buyurur:

«Öz günahından savayı heç bir şeydən qorxma!»

İmam Sadiq (ə) buyurur:

«Təəccüb edirəm o şəxsə ki, Allahın əzabından qorxur, bununla belə günah edir».

Yə'ni Allahın əzabından qorxan şəxs, heç vaxt günah etməz.

### 8. DÜZGÜN İBADƏT ETMƏK

İslamda düzgün ibadətin digər mə'nəvi faydaları ilə birlikdə insanı günahdan qorumaqda da mühüm rolu vardır. Ümumiyyətlə ibadət etməkdə məqsəd Allahı tanımaqdan sonra günahlardan qorunmaqdır. İslam dinində bütün ibadətlər təkcə Allaha görə olmalıdır. Bu niyyətlə hər gün ibadət etmək insanın Allahla rabitəsini möhkəmləndirir; insanı Ona daha yaxın edir. «Bəqərə» surəsinin 183-cü ayəsində oruc tutmağın son məqsədi günahlardan təmizlənmək kimi qeyd olunmuşdur. "Ənkəbut" surəsinin 45-ci ayəsində isə namaz qılmaqdan məqsəd günahlardan uzaqlaşmaq kimi bildirilmişdir. Bu barədə bir çox hədislər də vardır:

1. İslam Peyğəmbəri (s) buyurur:

«Namaz axar su kimidir. İnsan namaz qılarkən etdiyi günahlar təmizlənir».

2. İmam Sadiq (ə) buyurur:

«Namazının Allah dərgahında qəbul olub-olmamasını bilmək istəyən şəxs namazına baxmalıdır. İbadət edənin namazı onu günahdan nə qədər çəkindirirsə, bir o qədər də Allah dərgahında qəbuldur».

3. İmam Əli (ə) buyurur:

«Allah-təala namazı lovğalıqdan (təkəbbürdən) uzaq olmaq üçün vacib etdi».

Günahlardan təmizlənməkdə diqqət olunası mövzulardan biri də günahların müalicə yollarıdır.

Hər bir günahın öz dərmanı və öz müalicə yolu vardır. Bu mövzu əxlaq elmində geniş surətdə araşdırılır. Lakin biz burada bir neçə mövzunu açmağa kömək edən hədisə işarə edirik.

1. Əmmar Yasir deyir: «Kufə şəhərinin küçələrinin birindən keçirdim. Bu zaman İmam Əlini (ə) gördüm. Bir dəstə adam onun başına toplaşmışdı. O Həzrət isə günahların hər birinin müalicə yollarını onlara öyrədirdi».

İmam Əli (ə) başqa bir hədisdə buyurur:

«Qəlblərin ən çətin dərdi günah dərdidir».

2. İmam Baqir (ə) buyurur:

«Hər dərdin dərmanı var. Günahların əlacı isə tövbədir».

3. İmam Əli (ə) buyurur:

«Təqvanın (günah etməməyin) vasitəsi ilə dərdlərinizə dərman edin».

### GÜNAHIN MÜALİCƏ YOLU

Burada günahların müalicə yollarından biri haqqında söhbət açacağıq.

Belə ki, qeybət etməyə adət edən şəxs bu günahı iki yolla müalicə edə bilər.

1. Qeybət haqqında olan ayə və hədisləri oxusun və onun haqqında deyilən ilahi əzablar barədə fikirləşsin.

2. Qeybəti diqqətlə araşdırıb təhlil etsin. Sonra qeybətə səbəb olan həsəd, lovğalıq, paxıllıq və bu kimi amilləri tanısın, daha sonra bu amilləri məhv etməyə çalışsın. Bu vaxt qeybətə səbəb olan amillərin məhv olmasına görə qeybəti də tərk etmək asan olacaq.

### İSLAMDA GÜNAHKARLARLA RƏFTAR

İslam dinində bütün camaata vacibdir ki, tam qüdrətlə günahkarları pis yoldan və etdiyi günahlardan çəkindirsinlər. Bu məsələ o qədər əhəmiyyətlidir ki, İmam Sadiq (ə) buyurur:

"Əmr be mə'ruf (yaxşı işlərə də'vət etmək) və nəhy əz münkər (pis işlərdən çəkindirmək) Peyğəmbərin (s) və saleh adamların yolu və iki böyük ilahi vaciblərdəndir. Bu iki vacibin vasitəsi ilə başqa vaciblərə əməl olunur, yollarda əmin-amanlıq yaranır, camaatın qazandığı pullar halal olur və xalqın hüququ tə'min olunur. Həmçinin, bu iki vacibin köməyi ilə yerlər abad olur, düşmənlərdən intiqam alınır və bütün işlər öz yoluna düşür».

İslam dinində insanları pis işlərdən çəkindirib, düz yola hidayət etməyin yolları müxtəlifdir. Allah-təala Öz

**«Qəlblərin ən çətin dərdi günah dərdidir».**

peyğəmbəri Həzrəti Məhəmmədə (s) xitab edib buyurur:

«Onları hikmətlə, gözəl-gözəl öyüdlərlə Allah yoluna də'vət et və onlarla mübahisədə ən yaxşı yollardan istifadə et!» («Nəhl», 125.)

«Mö'minun» surəsinin 96-cı ayəsində buyurur:

«Pisliyi özündən kənar edəndə daha yaxşı bir üsulla bunu et».

### İCTİMAİ TƏNBEH

İslam dinində bə'zi vaxtlar günahkar şəxs ictimai cəhətdən tənbeh olmalıdır. Bu barədə bir neçə nümunəyə diqqət yetirin.

1. «Nur» surəsinin 3-cü ayəsində qeyd olunur ki, zinakarların tənbehi budur ki, onlar pak qadınlarla evlənə bilməzlər.

2. Həmin surənin 4-cü ayəsində isə göstərilir:

«Pak və iffətli şəxslərə şahid olmadan böhtan atan şəxsin tənbehi budur ki, onların bu sözü qəbul edilmir və onlara şallaq vurulmalıdır».

3. «Tövbə» surəsinin 28-ci ayəsinə görə müşriklər Məscidül-Hərama daxil ola bilməzlər.

4. Həmin surənin 118-ci ayəsinə əsasən, İslam Peyğəmbəri (s), müsəlmanlar və hətta onların arvad-uşaqları, cihadda iştirak etməkdən boyun qaçıran üç şəxslə danışmamalıdır. Bu üç şəxs yaranmış vəziyyətə dözə bilməyib tövbə etdilər. Allahın fərmanı ilə Peyğəmbər (s) onların tövbəsini qəbul etdi.

5. «Nisa» surəsinin 140-cı ayəsinə görə Qur'an ayələrini inkar və istehza edənlərlə oturub-durmaq qadağandır.

### BU BARƏDƏ BİR NEÇƏ HƏDİS

Günahkarla necə davranmaq haqqında çoxlu hədislər var. Onlardan bir neçəsini qeyd edirik.

1. İmam Əli (ə) buyurur:

«Günahkarları pis işlərdən çəkindirməyin ən aşağı dərəcəsi, onlarla acıqlı (və qaşqabaqlı) davranmaqdır»

2. İmam Sadiq (ə) Haris ibn Müğəyrə adlı bir səhabəsinə buyurdu:

«Nə üçün filan dostunun pis iş törətdiyini eşidəndə onu tənbeh edib günahdan çəkindirmədin?»

Haris dedi:

«O mənim sözümü qəbul etməz».

İmam Sadiq (ə) buyurdu:

«Onunla oturub-durma və ondan uzaqlaş».

3. İmam Kazim (ə) zalım padşah haqqında buyurur:

«Mənim uca bir binanın üstündən düşüb parça-parça olmağım zalım padşahın sarayında işləməkdən və ya onların xalçasının üstünə qədəm qoymaqdan yaxşıdır».

**İMAM SADİQİN (Ə) NİFRİNİ**

Davud ibn Əli (Mədinə şəhərinin rəisi və cinayətkar şəxslərdən biri idi) Müəlla ibn Xünəysi (İmam Sadiqin böyük şagirdlərindən biri idi) öldürdü və onun bütün var-dövlətini müsadirə etdi.

İmam Sadiq (ə) bu xəbəri eşidəndə Davudun yanına gedib dedi:

«Sən mənim dostumu öldürdün və onun varını qarət etdin. Allaha and olsun, sənə nifrin (qarğış) edəcəyəm».

Davud İmamın bu sözünə istehza edib dedi:

«Sən məni qarğış etməklə qorxudursan?!»

İmam Sadiq (ə) evinə qayıtdı və bütün gecəni namaz qılmaqla keçirtdi. Sübh vaxtı Allaha belə xitab etdi: «Ey qüdrətlilərin qüdrətlisi olan Allah! İlahi, Sənin elə bir izzətin var ki, bütün yaranışlar Sənin qarşında acizdirlər. Mənim intiqamımı bu zalımdan al!» Bu nifrindən bir saat keçməmişdi ki, Davudun ölüm xəbəri gəldi.

**İMAM KAZİMİN (Ə) GÜNAHKARLARLA RƏFTARI**

Bə'zən günahkarla mülayim və mehribanlıqla davranılmalıdır. Çünki belə davranış onları düz yola hidayət edəcək. Bu barədə maraqlı bir əhvalata diqqət yetirək. İmam Kazimin (ə) vaxtında xəlifənin yaxın adamlarından biri O Həzrəti görəndə ədəbsizlik edir və imama nalayiq sözlər deyirdi. Həmçinin o İmam Əliyə (ə) da xəyanət edirdi. Bir gün İmam Kazimin (ə) dostlarından bir neçəsi İmama dedilər: İcazə ver, onu öldürək! İmam isə qətiyyətlə bu işi məsləhət görmədi. O kişinin yerini soruşdu. Onun bir əkin sahəsində işlədiyini dedilər. İmam öz ulağına minib əkin yerinə tərəf yollandı və onun əkin sahəsinə girdi. Kişi uzaqdan qışqırdı: «Mənim yerimi ayaqlama». İmam isə yenə də öz ulağı ilə hərəkət edib o kişinin yanına gəldi. Ulaqdan düşüb xoş üzlə salam verdi. Sonra şirin-şirin sözlərlə onunla söhbətə başladı. İmam ondan soruşdu: Bu əkin yerinə nə qədər xərcin çıxıb?

Kişi cavab verdi: Yüz dinar.

İmam soruşdu: Bəs bu yerdən nə qədər məhsul götürməyə ümidin var?

O dedi: Mənim qeybdən xəbərim yoxdur!

İmam dedi: Mən səndən soruşdum ki, nə qədər məhsul götürməyə ümidin var?

Kişi cavabında dedi: 200 dinarlıq məhsul götürməyə ümid edirəm.

İmam Kazim (ə) içində 300 dinar pul olan bir kisəni ona verib buyurdu: Bunu al, götürəcəyin məhsul da sənin olsun!



İmamın bu davranışı o kişiyə o qədər tə'sir etdi ki, yerindən qalxıb İmamın alnını öpdü və dedi: «Məni bağışla, mənim təqsirlərimdən keç!»

İmam Kazim (ə) onun yanından qayıtdı və sabahı gün məscidə getdi. O kişi də məsciddə idi. İmamı görcək bu ayəni oxudu:

«Allah-təala daha yaxşı bilir ki, öz risalətini hansı ailəyə versin».

Kişinin dostları bu sözdən sonra onun yanına gəlib, belə danışmağının səbəbini soruşdular. O, İmamla olan əhvalatı dostlarına söylədi. İmam Kazim (ə) isə evə qayıdanda kişini öldürmək istəyənlərə dedi: Hansı yaxşı idi: sizin dediyiniz, yoxsa mənim onunla etdiyim rəftar?!

**ŞƏRİƏT HÖKMLƏRİNDƏ GÜNAHKARLA DAVRANIŞ MƏSƏLƏSİ**

İslami şəriət hökmlərində günahkarla davranış haqqında çox dəqiq göstərişlər vardır. Bu göstərişlərə düzgün əməl olunsa, günahkarların günahdan uzaqlaşmasına mühüm tə'sir edəcəkdir. Misal üçün, islam dinində gələn hüdud, diyə, qisas və tə'zir kimi hökmlərin kamil surətdə icrası günahın cəmiyyətdən yığışmasında müstəsna rol oynayacaqdır. İslamda tə'kid olunan göstərişlərdən bə'ziləri:

Şərab içənlərə qız verməyin.

Günahkara zəkat düşmür.

Günah işdən ötrü səfərə çıxan şəxsin namazı bütövdür.

Ərli arvad və ya evlənmiş kişi zina etsə, e'dam olunmalıdır.

Ərinə itaət etməyən arvadın nəfəqəsini (dolanışığını) tə'min etmək ərinə vacib deyil.

Oğrunun əli kəsilməli və ona rəhm olunmamalıdır.

Şərab olan süfrənin başında oturmaq qadağandır.

Hətta o süfrədə çörək yemək də haram və günahdır.

İslamda olan bu cür hökmlər insanlarla nə cür davranmağı bildirir. Bu hökmlərin hər biri öz növbəsində günahkarı etdiyi günahdan çəkindirməkdə özünə məxsus rol oynayır.

# MƏŞHƏD ZİYARƏTİ

"Məşhəd" sözü "şühud", "hüzur" və "şəhadətgah" (şəhid olunan yer) mənasındadır, və bu "məşahid" məşhəd sözünün cəmidir. Məşhəd və məşahid sözləri hicri-qəməri təqvimi ilə üçüncü yüzillikdə imamların (ə), övliyaların və tanınmış şəxslərin məzarlarına aid edilirdi. Məsələn, o dövrdə belə deyilirdi: Morğabın Məşhədi (Fars əyalətində), Mihənənin Məşhədi (Əbu Səid Əbülxeyrin məzarı) və Tus Məşhədi, yaxud Rəzəvi Məşhəd (Xorasanda imam Əli ibn Musanın (ə) türbəsi).

"Surətul-ərz" kitabının müəllifi ibn Həvqəl (367-ci h.q) yazır: "Əgər Tus da Nişapur vilayətinə aid olsa, o zaman onun şəhərləri Raykan, Təbəran və Noğandan (Toroğuz) ibarət olacaq. Əli ibn Musa ər-Rzanın (ə) qəbri Noğan şəhərinin yaxınlığında Sənabad kəndində yerləşir."

202-ci (h.q.) ildə Həzrət Rza (ə) Məmun Abbasinin əli ilə şəhadətə yetirildikdən sonra Sənabadda Harunun məqbərəsində torpağa tapşırıldı. Bundan sonra Noğanın Sənabadı "məşhəd" adı ilə tanındı və zaman keçdikcə şəhər genişlənməyə başladı. Xüsusilə, Şah Təhmasib Səfəvinin dövründə şəhər bir az da vüsət aldı və Tus əhalisi də Məşhədə köçürülməyə başladı. Tus Xorasanın şimal nahiyəsində Kəşfrud çayının yuxarısındakı yolda yerləşir və onun məşhur şəhərləri bunlardır: Noğan, Tabran, Radkan. Noğan üçüncü (h.q) yüzilliyin sonlarına qədər çox əhəmiyyət və etibara malik idi. Onun viranələri Məşhədin qərb hissəsində Hüseynabad və Mehrabad kəndləri yaxınlığında yerləşirdi. Ondan sonra Tabəran şəhəri əhəmiyyət və vüsət tapdı və sonralar Tus adı ilə tanındı. Nəhayət, öncə Sənabadda yerləşən bir məzara şamil edilən Məşhəd şəhəri yavaş-yavaş genişlənməyə başladı. 830-cu (h.q) ildən başlayaraq Noğan adı unuduldu və Tus (əslində Tabəran) şəhəri viran oldu. Onun yerini Məşhəd tutdu. Nəhayət, Səfəvilərin dövründə Tus əyalətinin və Xorasanın mərkəzinə çevrildi.

Məşhədin və Tusun fəthi 31 və 32-ci (h.q.) ildə Osmanın xilafəti zamanı müsəlmanlara nəsib oldu və Əbdülməlik Mərvanın (65-86 h.q.) xilafəti zamanı Bəni Təmim ərəbləri Tus qalasını ələ keçirdilər və 125-ci (h.q.) ilə qədər əldə saxladılar. 192-ci (h.q.) ildə Harun ər-Rəşid bu diyara səfər etdi və Tusda xəstələnərək öldü. Onu imam Rzanın (ə) dəfn olunduğu yerdə basdırdılar.

Bu şəhər Səlcuqilərin, İran Elxanlarının, monqolların və başqa qarətçilərin hücumlarına məruz qalmış və bir neçə dəfə viran edilmişdir. Yalnız



Səfəvilərin dövründə Məşhəd şəhəri xüsusi rövnəq tapmış və öz abadlığını bərpa etmişdir.

**Məşhədin məşhur ziyarətgahları**

Şəhərin ən mühüm ziyarətgahları və tarixi abidələri bunlardır: Həzrət imam Rzanın (ə) pak hərəmini, Gövhərşad məscidini, Pirizad mədrəsəsini, Balasər mədrəsəsini, Şeyx Bəhainin məqbərəsini, Balasər məscidini, Zərrin Səqqaxanasını və s.-ni əhatə edən Astani-qüds-Rəzəvi, Şah məscidi, Xacə Rəbi, Qonbəde-Səbz (yaşıl günbəz), Nadir şahın məqbərəsi və s.

**İMAM RZANI (Ə) ZİYARƏT ETMƏYİN FƏZİLƏTİ**

İmam Rzanı (ə) ziyarətin savabı, fəziləti barədə Peyğəmbəri-Əkrəm (s) və məsum imamlardan (ə) bir çox hədislər nəql olunmuşdur ki, bir neçəsini nümunə üçün qeyd edirik:

1. Şeyx Səduq öz "Uyunul-əxbar" və "Əmali" kitablarında Peyğəmbəri-Əkrəmdən (s) belə nəql edir ki,həzrət buyurmuşdur:

"Tezliklə mənim bədənimin bir parası (övladlarımın biri) Xorasan torpağında dəfn olacaq. Onu ziyarət edən hər bir möminə Allah Cənnəti vacib edər, bədənini isə Cəhənnəm oduna haram edər."

2. Yenə də Şeyx Səduq qeyd olunmuş kitablarında Peyğəmbəri-Əkrəmdən(s) belə nəql edir ki, o həzrət buyurmuşdur:

"Tezliklə mənim bədənimin bir parası (övladlarımın biri) Xorasan torpağında dəfn olacaq. Allah onu ziyarət edən və çətinliyi olan şəxsin çətinliyini aradan qaldırar və onu ziyarət edən günahkarın günahını bağışlayar."

3. Şeyx Səduq həzrət Əlidən (ə) nəql edir ki, o həzrət buyurmuşdur:

"Tezliklə mənim övladlarımdan olan bir kişi zülmkarlıqla zəhərləndiriləcəkdir. Onun adı mənim adım, atasının adı isə İmran oğlu Musanın adıdır”.

4. Şeyx Səduqdan nəql olunmuş başqa bir hədis belədir: "İmam Rza (ə) Məmunun əli ilə özünün necə öldürülməsini bəyan etdikdən sonra buyurur:

"Hər kim məni qürbətdə, uzaqdan məzarımı ziyarət etsə, Qiyamət günü üç yerdə onun yanına gəlib onu nigarançılıqdan və iztirabdan xilas edərəm; birincisi, insanların əməl kitabları sağdan və soldan onlara verilən zaman, ikincisi, insanlar Sirat körpüsündən keçən zaman, üçüncüsü isə əməlləri tərəziyə qoyulan zaman.

5. Uyun ul-əxbarda İmam Cavaddan (ə) nəql olunmuşdur ki, o həzrət buyurmuşdur:

"Atamın imamətinin həqiqiliyinə əqidəsi olduğu halda Tus vilayətini (Xorasan) ziyarət edən şəxs üçün Allah yanında Cənnətə zaminəm".

Allah bizi o həzrətin imamlıq haqqına arif olan zəvvarlardan etsin! Amin!







# HİCAB HƏM DƏ QADININ GÖZƏLLİYİDİR



***İslam dini Ərəbistan yarımadasının bədəvilikdə və cahiliyyətdə yaşayaraq müxtəlif cəhətlərdən qadının hüququnu tapdaladığı bir dövrdə meydana gəldi elə ilk günlərdən qadının məqam və dəyərindən söz açıb ona qarşı olunan hər növ zülmü məhkum etdi. İslamdan öncə, yəni cahiliyyət dövrü elə bir mərhələ idi ki, qadınla heyvanı bir tuturdular onun da insan olması heç kəsi maraqlandırmırdı. Demək olar ki, o zamanlar qadınlar ən əksik məxluq hesabına gəlib, insanlıq hüququndan məhrum idilər. Əlbəttə o zəmanənin ərəbləri tərəfindən həyata keçən zülm onların cahilliklərindən, qadının dəyər və qiymətini bilmədiklərindən irəli gəlir. İslam isə məhz həmin dövrdə qadına izzət verdi. İslam dininə əsasən qadın cəmiyyətin əsası, yaşadanı və tərbiyəedicisidir! Deməli, qadın ləyaqəti və mənliyi nə qədər uca olarsa, insan cəmiyyəti bir o qədər sağlam, möhkəm və əzəmətli olacaqdır.***

Qadın şəxsiyyətinin ucalmasına xidmət edən İslamın ən əhəmiyyətli və dəyərli qanunu «Hicab» yəni qadının yad kişilər qarşısında örtünməsinə-deyilir. Bu mövzu Qurani-Kərimdə izah edilmişdir və Quran bu barədə belə buyurur: «- Mömin qadınlara de: Özlərini naməhrəmə baxmaqdan örtsünlər, namuslarını qorusunlar və bər-bəzəklərini göstərməsinlər (yadlara) özü-özlüyündə görünənlər istisnadır. Baş örtüklərini yaxalarına salsınlar, zinətlərini məhrəmlərindən savayı, başqalarına göstərməsinlər – örpəkləri ilə boyunlarını və ondan aşağını örtsünlər. Bu iş onların əziyyət çəkməmələri üçündür!»

Aydın oldu ki, Quran qadınları iffətli olmağı üçün (dinin təyin etdiyi tərzdə) bədən üzvlərini naməhrəm gözündən gizlətməyi vacib bilir. Və hicabı qadın ləyaqətini, şəxsiyyətini ucaldan ən təsirli amil kimi tanıtdırır.

İslam dinində hicabın bir çox müsbət keyfiyyətləri vardır ki, onlardan ən başlıcası qadın şəxsiyyətinin ucalmasıdır. Hicablı qadın cəmiyyətdə, nəinki qarşı tərəfin alçaldıcı sui istifadəsi ilə üzləşmir, hətta özünə məxsus ləyaqət və mənliklə daim, «ictimai meydanda» qalib olaraq qalır. Hicablı qadına diqqət etdikdə, ilkin olaraq onun uca şəxsiyyəti, ali siması göz önündə canlanır onun batini şəxsiyyəti, fərdi bacarığı və mənəvi dünyası mühüm səciyyə daşıyaraq, zahiri gözəlliyi ikinci mərhələyə keçir. Hicablı qadın nə təkcə digərlərinin şəhvətli nəzərləri altında alçalmır, hətta bir növ etimad və məmnunluqla da qarşılanır. Qadınların hicabla riayət etməsi, ailə ocağının möhkəmliyinə, davamlı olmasına və nəticədə sağlam cəmiyyətin yaranmasına xidmət edir. Hicablı qadın ruhi və mənəvi cəhətdən azaddır, heç kimin şəhvətli nəzərləri və çirkin hiylələri qarşısında əyilməz. Bu azadlıq tam mənada özünü yaşayışın hər bir nöqtəsində biruzə verir. Bir halda ki, hicabsız qadın, özünün açıq-saçıqlığı ilə azad olduğunu xəyal etsə də, həqiqətdə həyatın bütün anlarında bu «xəyalı azadlığ»ın ləzzətini dada bilmir! İnglis alimi Ledi Bahau bu barədə deyir- «Əgər hicablı və mənəviyyatlı müsəlman xanımının qərb qadınlarından daha azad olduğunu desəm, heç də yanılmaram! Çünki müsəlman xanımı öz azadlığını olduğu kimi anlayaraq, onu hicabla mühafizə edib lakin qərb qadını öz zahiri azadlığı (açıq-saçıqlığı) ilə özünü əsir edibdir. Aldadıcı zahirən gözəl görünüşlü qərb mədəniyyəti, qadınları ilğım kimi özünə çəkir. Qərbdə mövcud olan şeytan yuvalarındakı qadın alveri, qadın mənliyini alçaldan əyləncələr də buna bir sübutdur». Hicab tək İlahi vəzifə deyil eyni zamanda insan ağlının dərk etdiyi bu günümüzün tələbidir! Qadının gözəlliyi onun zahiri çılpaqlığında yox, mənəvi cazibə darlığındadır. Zahiri gözəllik məcazi və keçici batini gözəllik isə həqiqi və daimidir. Qadın açıq-saçıq gəzərkən deyil, yalnız iffətli, həyalı, hicablı olarkən gözəldir. Qadın qoynunda qəhrəmanlar böyüdüb-bəsləyən ana deməkdir. Hər millətin qadınları, o millətin analarıdır. «Cənnət anaların ayağı altındadır» - buyurur. Peyğəmbər (s) cənnəti həyalı və hicablı qadınların ayaqları



**İmam Sadiq (ə) buyurub:**
**«Gözəl geyin zinətlən, Allah gözəldir və gözəlliyi sevir! Lakin bu gözəllik pak və halal olmalıdır.**

Hicabın müsbət keyfiyyətləri ilə yanaşı hicabsızlığın bir çox mənfi cəhətləri vardır. Hicabsızlıq ən çox qadın mənliyinin alçaldılmasına səbəb olur. Özünə məxsus zərifliyə və gözəlliyə malik olan qadın həmişə qarşı tərəfin (kişilərin) diqqət mərkəzindədir. Və heç kimə gizli deyildir ki, daim bu tərəfin sui-istifadə hədəfinə çevrilə bilir. Belə ki, keçmişdə və yaşadığımız zamanda, qadının gözəlliyindən olduqca alçaldıcı, təhqiredici şəkildə istifadə olunmasını təsdiq edir. Qadından müxtəlif yerlərdə (kafe, bar, gözəllik müsabiqələrində və s.) reklam və əyləncə vasitəsi kimi istifadə edilməsi də bir sübutdur. Hicabsız qadına diqqət etdikdə, ən əvvəl onun zahiri gözəlliyi və cazibədarlığı göz önünə gəlir. İstər bu qadın alim, ziyalı, rəhbər və yaxud sair peşə sahibi olsun. Həqiqətdə isə qadının əsl dəyəri onun şəxsiyyətindədir! Elə bu səbəbdən də o, daim hicabsızlığın acısını dadaraq cürbəcür ədalətsizliklərlə üzləşir. Hicabsız qadın həmişə digərlərinin yad, xoşagəlməz baxışları altında əziyyət çəkərək, ruhən inciyir. Hicabsız qadın (öz hicabsızlığı ilə) İlahi qanunu sındıraraq, daim Allah qarşısında günahkardır. Hicabsızlıq, açıq-saçıqlıq cəmiyyətin gələcəyi olan cavanların ruhi-əxlaqi sıxıntılara məruz qalmasına bais olur ki, İslam dini məhz belə şeylərin qarşısına almaq üçün qadınların başlarını bağlamağını, abırlı geyinməyi vacib hesab etmişdir. İslam qadına baş yaylığından istifadə etməsini və iffət qanunlarına uyğun geyinməsini ona görə zəruri etmişdir ki, cinsi ləzzətlər ailə mühitində və qanuni həyat yoldaşı ilə məhdudlaşsın. Məhz bütün bu səbəblərə görə islam qadının evdən çıxan zaman kişilərin diqqətini cəlb edə biləcək paltarların geyilməsinə icazə vermir və bütün bunlardan belə bir nəticəyə gəlmək olar ki, hicab qadın zinətidir. Qadın ruhunun, saflığının, sadəliyinin və ən başlıca olaraq Allah-taalaya olan imanının rəmzidir, qadını qadın edən hicab, qadının bəzəyi və gözəlliyidir. Mənim zənnimcə qadın hüququnun tapdalanmaması və ləyaqətinin alçaldılmaması üçün hər bir qadın hicaba riayət etməlidir. Belə münasibətlərə səbəb olmamaq üçün geyimlərinə fikir verməli, Allah-taalanın bəyəndiyi kimi geyinməlidir.

altında görür. Hicab – qadının əmniyyətinin və gözəlliyinin əvəzolunmaz qarantıdır. Hicab İlahinin qadına bəxş etdiyi rəhmət və mərhəmət örtüyüdür. Hicab- İlahi gözəlliyin nişanəsidir. İmam Sadiq (ə) buyurub: «Gözəl geyin zinətlən, Allah gözəldir və gözəlliyi sevir! Lakin bu gözəllik pak və halal olmalıdır.

İslamdakı hicabdan məqsəd tərki dünyalıq, ictimai işlərdən məhrumluq deyil bəlkə İslam dini qadının hicaba düzgün əməl etməklə bərabər, kişilərlə cəmiyyətdə iqtisadi, siyasi, mədəni elmi, texniki və s. işlərdə eyni fəaliyyət göstərməsinin tərəfdarıdır. Üz və əllərdən başqa bədənin digər yerlərinin örtülməsi heç vaxt onun mədəni, ictimai fəaliyyətinə mane olmur. Əksinə olaraq qadınları cəmiyyətə ən ülvi və saf insanlar kimi təqdim edir. Qadın hicabla kəramətlənir və dəyəri yüksəlir . Çünki bu vəziyyət onların əxlaqsız və tərbiyəsiz adamların pis baxışından qoruyar. Beləliklə, bu qənaətə gəlirik ki, müqəddəs islam dini qadınların fitnə – fəsaddan qorunması, kamala və səadətə çatması üçün birinci yolu hicab qanunlarına ciddi əməl etməsində görür.

**Tamila Şahverdiyeva**

## SEHR, GÖZBAĞLAMA, RUHLARIN VƏ CİNLƏRİN ÇAĞIRILMASI



***Sual: Gözbağlayıcılığı öyrətmək, öyrənmək və ona baxmaq, sürətli əl hərəkətləri ilə yanaşı olan oyunları keçirməyin hökmü nədir?***

Gözbağlayıcılığı öyrət-mək və öyrənmək haramdır, lakin sürətli əl hərəkətləri ilə yanaşı olan və gözbağlayıcılıq növündən hesab olunmayan bu oyunların işkalı yoxdur.

***Sual: Cəfr, rəml, tilsim və bu kimi qəribə elmləri, eləcə də qeybdən xəbər verən sair elmləri öyrənmək caizdirmi?***

Hal-hazırda camaat arasında mövcud olan bu elmlər əksər hallarda qeybi işlərin kəşf olunmasına və onlardan xəbər verilməsinə yəqin və xatircəmliyə səbəb olacaq qədər etimad olunası deyil. Lakin cəfr və rəml kimi elmləri düzgün şəkildə öyrənməyin işkalı yoxdur, bu şərtlə ki, öz ardınca bir fəsad gətirməsin.

***Sual: Sehri öyrənmək və ona əməl etmək caizdirmi? Ruhları, mələkləri və cinləri çağırmaq caizdirmi?***

Sehr elmi və onu öyrənmək haramdır. Amma əgər əql sahibləri yanında bəyənilən və qanuni bir məqsədlə olsa, bu istisna olunur. Ruhların, mələklərin və cinlərin çağırılmasına gəldikdə isə şəraitin, vəsait və məqsədlərin fərqləndiyinə görə hökmlər müxtəlif ola bilər.

***Sual: Möminlərin, ruhları və cinləri ram etməklə xəstəliyi müalicə edən bəzi şəxslərə müraciət etməsinin hökmü nədir? Bunu da nəzərə alaq ki, onlar yalnız xeyir işlər görürlər.***

Bu işin öz-özlüyündə eybi yoxdur, bu şərtlə ki, şərən halal olan yollarla görülmüş olsun.

***Sual: Daş parçaları vasitəsilə fala baxmaq və bu yolla qazanc əldə etmək caizdirmi?***

Yalan xəbər vermək caiz deyil. Hər bir halda bu kimi işlərin dini əsası yoxdur.

## HİPNOTİZM

***Sual: Hipnotizm caizdirmi?***

Əgər əql sahiblərinin bəyəndiyi məqsədlə, eləcə də hipnotizm olunmaq istəyən şəxsin razılığı ilə baş versə və haram bir işlə yanaşı olmasa, işkalı yoxdur.

***Sual: Bəziləri müalicə məqsədi ilə deyil, insanın ruhi qüdrətini göstərmək məqsədi ilə hipnotizm edirlər. Bu iş caizdirmi? Bu barədə təcrübəyə malik olan, lakin mütəxəssis olmayan şəxslər üçün bu işi görmələri caizdirmi?***

Ümumi halda hipnotizmi öyrənmək və onun halal və nəzərə çarpacaq ağlabatan məqsədlər yolunda istifadə etməyin işkalı yoxdur, bu şərtlə ki, süni yuxuya getmək istəyən şəxsin razılığı ilə olsun və ona etina olunacaq bir zərər dəyməsin.

## *Halal heyvanda haram hissələr*

***Ətindən gündəlik həyatımızda istifadə etdiyimiz heyvanların ( inək, qoyun, toyuq, balıq və s.) bəzi üzvləri vardır ki, onların yeyilməsi Allah tərəfindən haram edilmişdir. Bunların beşi şəri hökmlər tərəfindən haramdır. Bunlar aşağıdakılardır:***



***1. Dalaq 2. Erkək heyvanın cinsiyyət üzvü 3. Erkək heyvanın toxumluğu (ağət) 4. Qan 5. Tullantı və peyin***

***Insanların nəzərində iyrənc hesab edilən orqanlar da haram hesab edilir. Buna görə ehtiyati vacibə əsasən onların yeyilməsindən çəkinmək lazımdır. Bunlar aşağıdakılardır:***

***1. Sidik kisəsi***
***2. Öd kisəsi***
***3. Uşaqlıq***
***4. Dişi heyvanın cinsiyyət üzvü***
***5. Vəzi. Buna duşvil də deyirlər ki, daha çox heyvanın budunun daxilində və piy çox olan hissələrdə ət rənginə oxşar pərk maddə- piydir.***
***6. Onurğa beyni ( fəqərə və boyun sütununun daxilində yerləşən haram beyin)***
***7. Beyin noxudu. Bu beyində noxud şəkilindədir.***
***8. Dırnağın arasında yerləşən çıxıntı. Bunu heyvanın ayaqlarını bişirən zaman dırnaqdan ayırmaq lazımdır.***
***9. Gözün hədəqəsi. Buraya gözün ağ maddəsi daxil deyil. Bu başın bişirilməsi zamanı əmələ gələn qara bərk hissədir ki, bunu yemək haramdır. Gözün ağı halaldır.***
***10. Fəqərə sütununun iki tərəfində yerləşən piy. Bu boyundan quyruq hissəyə qədər uzanan tünd sarı rəngdə olub, çox möhkəmdir və bişmir. Çeynəmək də mümkün olmur.***

# SUAL CAVAB



**AYƏTULLAH MƏKARİM ŞİRAZİNİN «NÜMUNƏ» TƏFSİRİ ƏSASINDA DİNİ SUALLARA CAVABLAR**

## Nə üçün insanların əksəriyyəti həqiqəti xoşlamır?

**Cavab:** Ola bilsin ki, bu mövqeyə etiraz edənlər tapıla. Axı ən qəddar cinayətkarlar da, həqiqəti sevdiklərini iddia edirlər. Burada iki mühüm nöqtəni qeyd etmək zəruridir.

Əvvəla, həqiqəti dildə, başqa sözlə sözdə qəbul etmək hələ həqiqəti sevmək deyildir. Həqiqətə bağlılıq əməldə sübut olunmalıdır. Həqiqəti sevən insan, bu həqiqət onun zərərinə olsa belə, etiraz etməz. Amma sözdə həqiqətdən dəm vuranlar, həqiqət onlara qarşı olduqda bəhanəyə əl atarlar.

İkincisi, bəziləri elə güman edirlər ki, həqiqət nisbi anlayışdır. Amma əslində Allah bir olduğu kimi, həqiqət də birdir. Əgər bir tayfa müsəlman, o biri tayfa bütpərəstdirsə, bu o demək deyil ki, həqiqi din ikidir. Əgər nəzərə alsaq ki, dünyada yalnız bir həqiqi din mövcuddur, aydınlaşar ki, bəşəriyyətin böyük bir hissəsi həqiqətdən uzaqdır. Bu barədə Quranda belə buyurulur:

«...Peyğəmbər onlara haqq olan Quranla gəldi. Lakin onların əksəriyyəti haqqı xoşlamır». («Möminun» surəsi, ayə 70.)

«İnsanların əksəriyyəti şükr edən deyil».(«Bəqərə» surəsi, ayə 243.)

«İnsanların əksəri iman gətirməz».(«Hud» surəsi, ayə 17.)

«İnsanların əksəri bilməz». («Əraf» surəsi, ayə 187.)

Bu ayələr uyğun məsələyə Quranın münasibətini açıq-aşkar bəyan edir. Bəs nə üçün əksəriyyət haqqı xoşlamır? Cavab olduqca sadədir: Allahdan çəkinməyib, dünya istəklərinə uyan insan, həqiqətə təslim olmaq iqtidarında deyildir!

## Bər-bəzəkli yaşayışın imana təsiri varmı?

**Cavab:** Allah-təala Qurani-kərimin müxtəlif ayələrində insanı ibadət üçün xəlq etdiyini buyurur. Bu da aydındır ki, qəlbdə Allah sevgisi olmadan əyilib-düzəlməyin heç bir faydası yoxdur. Quranda bu barədə buyurulur: «Vay halına o namaz qılanların ki, onlar öz namazlarından qafildirlər». («Maun» surəsi, ayə 4, 5.)

Bir anlıq özünüzü cərrahiyyə otağında hiss edin. Bu otaqda telefon, televizor, divarda şəkil, yerdə rəngarəng xalı-xalça gözə dəymir. Burada insanın diqqətini əməliyyatdan yayındırası heç nə yoxdur. Çünki bu otaqda insanın talehi həll olunur. Bir əməliyyatçının fikir dağınıqlığı, insan həyatına son qoya bilər.

Əgər Allah-təala ibadət üçün xəlq etmiş və fikir dağınıqlığı ibadəti puça çıxarırsa, demək, insan eynən cərrahiyyə otağındakı sadə mühitdə ibadət etməlidir.

Bəs qalan vaxtlar necə, Allahı unutmaq olarmı? Bər-bəzəkli həyat insan düşüncəsini Allaha yaxınlaşdırır, yoxsa uzaqlaşdırır? «Möminun» surəsinin 33-cü ayəsindən məlum olur ki, kübar həyat tərzi iman yolunda ciddi maneələrdəndir: «Tayfasının kafir olan, axirətə qovuşacaqlarını yalan hesab edən və dünyada nemət verdiyimiz əyan-əşrəfi dedilər: «Bu sizin kimi adi bir insandır...».

Bər-bəzəkli gün-güzəran qurmaq, başqalarının haqqını qəsb etmədən mümkün olmur. Dünyada böyük var-dövlət qazanmaq üçün əksər hallarda peyğəmbərləri və onların buyuruqlarını inkar etməkdən başqa yol yoxdur. Baxın ətrafa. Kübar həyat tərzi keçirənləri necə görürsünüz? Cəmiyyətdə spirtli içkiləri, əxlaqsızlığı, sələmçiliyi və başqa min bir fəsadı törədən həmin təbəqə deyilmi?!

## Allahın qurbanlığa ehtiyacı varmı?

**Cavab:** Bəşər tarixində qurbanlıq haqqında ilkin məlumatla Adəm peyğəmbərin iki oğlunun əhvalatında rastlaşırıq. «Onlar qurban gətirdikləri zaman birinin qurbanı qəbul edilmiş, digərinin isə qəbul olunmamışdır». («Maidə» surəsi, ayə 27.)

Bütün səmavi kitablarda, eləcə də, Qurani-kərimdə ilahi hədlər gözlənilməklə, Allah yolunda qurban kəsilməsi alqışlanılır. Lakin cəhalət üzündən bütün işlərdə ifrata varan insanlar, bu işdə də günaha yol vermişlər. Onlar ibadət üçün xəlq olunmuş insan övladını qurbanlıq etməkdən belə çəkinməmişlər. Beləl追i, təbii ki, Allahın qəzəbinə düçar olmuşlar. Allah-təala İbrahim peyğəmbərə (ə) oğlu İsmayılı qurbanlıq etməsi üçün göstəriş verdiyi halda, İbrahimin əlində bıçağın kütləşməsi, Allahın qurbanlıq üçün qoyun göndərməsi, bir daha vəhşi adətlərin süqutudur.

Allahın qurbanlığa ehtiyacı varmı? Cism olmayan ehtiyacsız Allah belə buyurur: «Onların nə əti, nə də qanı, əlbətdə, Allaha çatmaz. Allaha çatacaq olan, yalnız sizin təqvanızdır».(«Həcc» surəsi, ayə 37.)

Qurban kəsmək ibadətdir. Bütün ibadətlərin əsas hədəfi, kamil insan tərbiyəsidir. Qurban kəsən insan fədakarlıq məktəbi keçərək, şəhadət üçün hazırlıq görür.

Qurbanlığın digər bir əhəmiyyəti də, fəqir və miskinlərin yada salınmasıdır.

## ÖLÜM MƏQAMINDA TÖVBƏNİN FAYDASI VARMI?

Əvvəlcə tövbənin həqiqi mə`nasını anlamaq lazım gəlir. Yalnız bundan sonra ehtizar halında tövbədən danışmaq olar. Bə'ziləri tövbəyə sadə bir iş kimi baxır. Onlara elə gəlir ki, "əstəğfirullahə rəbbi və ətubu iləyh" deməklə tövbə həyata keçir. Hansı ki, tövbə təkcə dilə aid olan iş deyil. Tövbə ruha aid olan daxili bir qiyamdır. "Əstəğfirullah" sözü yalnız bu iç halını bəyan edir.

Tövbə insanın özünün özünə qarşı qiyamıdır. Bu insanın özünəməxsus bir səciyyəsidir. Yalnız insan özü özünə qarşı qiyam qaldıra bilər. Heyvan və bitki öz inkişaf yolunda maneə gördükdə yolunu dəyişir, ya da müqavimət göstərirlər. Nə heyvanat, nə də nəbatat aləmində özü özünə qarşı qiyam qaldıran yoxdur.

Amma insan öz əsrarəngiz iste`dadı ilə özünə qarşı qiyam qaldıra bilir. İnsan iki yönümlü mövcuddur: Onda həm təbii (heyvani), həm də ruhani yönüm var. Ona görə



də bə`zən ilahi göstərişlərdən çıxır, təbii yönümündə qərq olur, varlığının mahiyyətini təşkil edən ruhani yönümündən qəflətdə qalır. Şəhvətlərə qərq olmuş insan ağlını işə salsa, anlayar ki, necə bədbəxt vəziyyətdədir. İnsan öz gizli iste`dadları ilə mələklərdən üstün olmaq imkanına malik məxluqdur. O, "xəlifətullah", yə`ni Allahın xəlifəsi məqamına yüksələ bilər. Amma o nəfsinə əsir olmuşdur. Qəfildən onun daxilində bir şimşək çaxır, ilahi tovfiq və daxili istəklər dərk edir ki, bütün əxlaqi fəzilətləri nəfs istəklərinə yenmişdir və heç bir azadlığı yoxdur.

Məhz bu məqamda insan öz istək və iradəsi ilə qiyam qaldırıb öz ruhani yönümü ilə heyvani yönümünə qarşı inqilab edir. O, vücudunun cilovunu əlinə alır. Elə bu məqamda da tövbə gerçəkləşir. Tövbəkar insan çalışır ki, özünü sirati-mustəqimdə, yə`ni doğru yolda sabitqədəm etsin.

Ayətullah Cəvadi Amuli bu barədə buyurur: "Tövbə bir növ ölüm və qayıdışdır. Tövbə edən kəs əslində şəhvət və qəzəbini öldürür. Şəhvət və qəzəbin susdurulması bu iki azğın yönümdə tarazlıq əldə edilməsidir. Belə olduqda insanda şəhvət, qəzəb və cəhalət ölür. Bu yolu davam etdirmək üçün şəhvət və qəzəbin ölümü ilə kifayətlənmək olmaz. İnsan öz ağlının göstəriş verdiyini anlamağa çalışmalı və ona əməl etməlidir. Yə`ni əqli ləzzətlərlə bağlanmalıdır."

Həzrət Əli (ə) "əstəğfirullah" deməklə tövbə etdiyini düşünən bir şəxsi məzəmmət edib buyurdu: "Tövbə, istiğfar "illiyinə" (ali məqama) aid dərəcədir." Sonra Həzrət əlavə etdi: "İstiğfar və tövbə altı əsas üzərində qurulmuşdur: Keçmişdəki günahlara peşimanlıq, gələcəkdə günahı tərk etmək qərarı..."

Əxlaq alimləri bu iki şərti tövbənin sütunlarından saymışlar.

## BƏS ÖLÜM ƏLAMƏTLƏRİ GÖRÜNDÜKDƏN SONRA EDİLƏN TÖVBƏNİN TƏSİRİ VARMI?

Qur`an ayələrinə əsasən, insanlardan bir güruhu ölüm əlamətlərini görməklə iman gətirib tövbə qılırlar. Onlar düşünürlər ki, belə bir e`tirafın onlara faydası var. Hansı ki, onlara rədd cavabı veriləsidir.



Onların peşmançılığının Allah tərəfindən qəbul olmamasının səbəbi tövbə şərtlərinin ödənməməsidir. Peşmançılıq tövbə sütunlarından olsa da, o vaxt fayda verir ki, insanın ruhi tərəqqisindən qaynaqlansın. Günah etməyə qadir insanın peşmançılığı dəyərlidir. Əgər insanın günah etmək gücü qalmayıbsa, onun tövbəsi də səmərəsiz olur.

Günaha gücü çatmayan məqamda insanda yaranmış peşmançılıq onun iradəsindən yox, çarəsizliyindən yaranmışdır.

Qeyd etməliyik ki, bu sayaq insanların tövbəsinin qəbul olunmaması Allahın rəhməti ilə zidd deyil. Çünki belələrinin tövbəsi müəyyənləşmiş şərtlər ödənmədiyindən həyata keçməmişdir. Tövbənin mahiyyətini azad insanın daxilindəki qiyam təşkil edir. Allahın rəhməti genişdir və şübhəsiz, o belə bir tövbəni qəbul edir. Amma insan öz azadlığını itirəndə, ölüm və ilahi əzab əlamətləri aşkar olanda tövbəni izhar etmək məcburiyyətdən doğur. Belə bir tövbə yalnız boş iddiadır.

Mübarək "Nisa" surəsində tövbənin qəbul olub-olmama ölçüsü bəyan olunmuşdur. Ayələrdə buyurulur: "Həqiqətən, Allah o kəslərin tövbəsini qəbul edər ki, ləyaqətsiz işi cəhalət və nadanlıq üzündən görmüş olsunlar və sonra həmin əməlin çirkinliyini bilib dərhal tövbə etsinlər. Allah belələrini bağışlayar. Allah biləndir və hikmət sahibidir."("Nisa", 17.); Bütün ömrünü çirkin işlərlə məşğul olub yalnız qaçılmaz ölümü müşahidə etdikdə peşiman olan və "indi tövbə etdim" deyən kəsin tövbəsi qəbul olunmayacaq. Belə ki, küfr halında ölənin də tövbəsi qəbul deyil. Bu güruh üçün yetərincə dərdli əzab hazırlamışıq.("Nisa", 18.)

Bu iki ayəyə əsasən iki zümrənin tövbəsi qəbul olunmur: ölüm anınadək tövbə məsələsində səhlənkarlıq göstərib yalnız ölüm əlamətlərini gördükdə tövbə edən; küfr halında dünyadan gedib, ölümdən sonra tövbə edən.

Bu iki zümrənin tövbəsinin qəbul olmaması belə izah edilə bilər: tövbə yetkinlik yaşına çatmış insanın əməllərindəndir; dünya, vəzifələrin icra yeri, axirət isə nəticə və əməllərdən bəhrələnmə aləmidir. Uyğun tövbələr insan dünya ilə vidalaşıb axirətə qədəm qoyduqdan sonra baş verdiyindən faydasız olacaq. Bu səbəbdən də kafirlər və günahkarlar öldükdən sonra arzu edərlər ki dünyaya qayıdıb iman gətirsinlər, saleh işlər görsünlər. Çünki onlar axirətdə iman gətirməyin faydasız olduğunu bilirlər.

Möhsün Mirzəpur




## NƏFSİ İLƏ MÜBARİZƏ APARAN KAFİR NECƏ MÜSƏLMAN OLDU

Bir nəfər Mədinəyə gəlir və camaata deyir: “Mən sizin həyatınızdan xəbər verə bilərəm”. Onunla əlaqədə olan insanlar öz həyatlarına aid xəbərləri soruşurlar və o, da deyir. Ancaq düz deyir. Bu məsələni İmam Kazıma (ə) bildirdilər: “İmansız və müsəlman olmayan bir şəxs Mədinəyə gəlib, insanlara həyatlarından xəbər verir”.

Həzrət (ə) onunla görüşdü və insanların içində buyurdu: “Nə etmisən ki, bu hala düşmüsən və gizlicə yol tapmısan?”. Həmin adam Həzrətə (ə) dedi: “Çox şey istəmişəm və istəklərimlə müxalifətlik etmişəm. İstəklərim qarşısında səbr etmişəm və onların ardınca getməmişəm, istər acı olsun, istərsə də çətin”.

Həzrət (ə) buyurdu: “Düzdür ki, bu cür elm kiçik müddətdə çəkdiyin səbr və istəklərinə müxalifətliyinə görə nəsibin olmuşdur. Bu məsələ düzdür. Çünki mehriban Allah heç bir kəsin əməlini zay etməz. Hətta əgər Allahla olmayıb, Ona qarşı çıxanlara belə. Çəkdiyin əziyyətlərə və səbrə görə haqdır ki, sənə bu cür mükafat verilsin. Ancaq müsəlman olmaq istəyirsənmi?”. Dedi: “Xeyr, müsəlman olmağa heç bir əlaqəm yoxdur”. Həzrət (ə) buyurdu: “Nəfsinlə mübarizə apar və müsəlman ol! Sən ki, nəfsinlə müxalifətlik etməyi bacarırsan. Batinin deyir müsəlman olma, ancaq batininlə cihad edib, müsəlman ol!”. Həmin adam deyir: “Baş üstə”. Beləliklə, həmin kafir insan, İmam Musa ibni Cəfərin (ə) yanında müsəlman olur. İslam qanunlarını öyrənəndən sonra bir nəfər yanına gəlir və deyir ki, həyatımın xəbərlərini mənə ver. Nə qədər fikirləşirsə, görür ki, heç bir xəbər ağlına gəlmir. İmamın (ə) yanına gəlir və deyir: “Ey Allahın Rəsulunun övladı! O zaman ki, dinsiz idim, gələcəkdən xəbər verə bilirdim, ancaq indi ki, dindar olmuşam, heç bir xəbər verə bilmirəm. Bəs dindarlığımızın muzdu nədir?”.

Həzrət (ə) buyurdu: “Sənin müsəlman olmağının muzdu bu dünyaya sığışmaz. Sənə verməli olduqları mükafatı bu dünyada vermək mümkün deyildir”. Həmin adam deyir: “Qiyamətə qədər səbr edəcəyəm ki, müsəlman olmağımın mükafatını aləmlərin Pərvərdigarından alım”.

## ÖLÜMÜ DURDURAN YAXŞILIQ

Sevimli Peyğəmbərimiz Həzrət Məhəmməd (s) yaxın adamları ilə bir kəndin kənarından keçirdilər. Kəndin camaatı bir yerə toplaşıb həvəslə hansısa tədbirə hazırlıq görürdü. Bu vaxt Peyğəmbər öz yaxınlarına deyir: "Bu gün kənddə toy olacaq. Lakin sabah həmin toy evində yas keçiriləcək. Çünki toy gecəsi bəyin yatağına girən ilan onu öldürəcək".

Ertəsi gün Peyğəmbərimiz yaxınları ilə yenə həmin kənddən keçəndə hər kəsin şən əhval-ruhiyyədə oduğunu görür. Yaxınlarından biri Peyğəmbərdən soruşur: "Ey Allahın Rəsulu! Bəs siz deyirdiniz ki, bu gün burda yas olacaq? Halbuki hər kəs kefi kök, nəşəli gəzib dolaşır?!" Həzrət Məhəmməd adamları ilə birlikdə toy evinə yollanır. Ev adamları ilə salamlaşdıqdan sonra soruşur: "Deyin, sizlərdən biri dünən səxavətli iş görübmü?" Evin böyüyündən tutmuş kiçiyinə qədər hamıya bu sual verilsə də, heç kəs toy günü səxavət göstərdiyini boynuna almır. Evdə soruşulmamış bircə təzə gəlin qalır. Sevimli Peyğəmbərimiz pərdənin arxasından ona da bu sualı verir. Gəlin Allah Rəsuluna belə deyir: "Ey Allahın elçisi! Dünən qapımıza bir ehtiyaclı qadın gəlib kömək istədi. Ancaq evdəkilərin başı toy işlərinə qarışdığından heç kim ona yardım etmədi. Qadın pəncərəmə yaxınlaşıb bu sözləri dedi: "Üç atasızı böyüdürəm, balalarım acından birtəhər olublar. Allaha xatir, mənim yetim övladlarımı yardım et, qarınlarını doyuzdurum". Mən də otağımda özüm üçün hazırlanan yeməklərin hamısını yığıb qadına verdim. O, mənə dua edib getdi".



Gəlin sözünü bitirəndən sonra Peyğəmbərimiz hər kəslə birgə təzə evlənənlərin otağına girməyə icazə alır. Oraya girən kimi Allah Rəsulu təzə bəyin yastığını qaldırır. Hər kəs yerində donub qalır. Onlar yastığın altında yuxulayan bir ilan görürlər. Peyğəmbər deyir: "Gəlinin dünən göstərdiyi o böyük səxavət nəticəsində bəyi sancmalı olan bu ilan Allahın lütfü ilə yuxuya gedib, ona görə də bəy sağ-salamat qalıb".

Beləliklə də, səxavət göstərməyin necə böyük bəlanın qarşısını aldığını bir daha görmüş olduq.



# HEKAYƏLƏR

## OXU ÇIXARTDINMI?

Həzrəti Əlinin(ə) ayağına döyüş zamanı bir ox batmışdı.Ox sümüyə girdiyi üçün onu heç cür çıxarda bilmirdilər. Gətirilən həkim yaranın dərinliyini görüncə deyir:

-Ancaq sizi bihuş edərək bu oxu çıxara bilərik.Yoxsa ağrısına dözə bilməzsiniz.

Həzrəti Əli(ə)belə cavab verir:

-Bihuşedici dərmana ehtiyac yoxdur.Bir az gözləyin,namaz vaxtı gəlsin.Mən namaz qılmağa başlayanda oxu çıxardarsınız.

Bir az gözlədikdən sonra namaz vaxtı girir.Həzrəti Əli(ə) dəstəmaz alıb ALLAH-a böyük bir sevgi və ehtiramla namaz qılmağa başlayır.Uca Rəbbi ilə ünsiyyətdə olmağın verdiyi həzz sanki onu bihuş etmişdi.Bu arada həkim oxu çıxartmışdı,yaranı sarımışdı.Həzrəti Əli(ə) namazı bitirən kimi həkimdən soruşur:

- Oxu çıxartdınmı?...

Demək,ALLAH sevgisi ilə coşub-daşan bu iman örnəyi,bu nurlu köks sümüyə dirənmiş oxun çıxarılmasını hiss etməmişdi...

## ŞEYTAN

Yaşlı qadın olduqca Allaha bağlı bir adam idi. Hər səhər qapısının ağzına çıxar və uca səslə: "Allahım, bizə verdiyin hər şey üçün sənə şükürlər olsun!" deyə dua edərdi. Hər dəfə də yan qonşusunun səsi eşidilər, qonşusu səsi çıxdıqca: "Allah yoxdur, Allah yoxdur!" deyə fəryad qopardı. Yaşlı qadın bundan nə qədər incisə də, sözündən dönməzdi. Ertəsi gün yenə qapısının ağzına çıxar, dua edər, sonra evinə qayıdardı. Qonşusu da inad olsun deyə var gücü ilə, "Allah yoxdur, Allah yoxdur!" deyib təsəlli tapmağa çalışardı.

Bir axşam dinsiz qonşusu yaşlı qadına "tələ qurmağı" qərara aldı. Dükana gedib meyvə, tərəvəz, çörək aldı. Doldurduğu torbaları yaşlı qadının qapısının ağzına qoydu. Ertəsi gün yaşlı qadın qapını açıb torbaları gördü. Əvvəlcə təəccübləndi, sonra əllərini Allaha açıb sevinclə, "Sənə şükürlər olsun, Allahım. Göndərdiyin bu nemətlər üçün sənə şükürlər olsun!" deyə dua etdi. Bu vaxt ağacın arxasından ona tamaşa edən qonşusu səsləndi: "Allah yoxdur, qadın, Allah yoxdur! O gördüyün şeyləri də sənə mən aldım!". Yaşlı qadın heç halını pozmadı və bu ibrətli sözləri dedi: "Uca Allahım! Sənə nə qədər şükür etsəm, yenə azdır. Həm bu nemətləri mənə göndərmisən, həm də xərcini şeytana ödətmisən"...

## "ALLAH" DEMƏK..

Kasıb bir oğlan padşahın qızına aşiq olur. Ancaq bu arzusunun əlçatmaz olduğunu anladığı üçün pərişan halda gəzib-dolaşır. O, bir dəfə ağsaqqal bir dərvişlə rastlaşır və dərdini ona açır. Dərviş də, öz növbəsində, ona: "Övladım, şəhərin girişində otur, kim sənə nə desə sən ona: "Allah",- deyə cavab ver",- məsləhətini verir.

Kasıb gənc dərvişin məsləhətinə əməl edir. Günlərlə, aylarla şəhərin girişində oturur. Kimin nə deməsindən, nə soruşmasından asılı olmayaraq, ancaq Allah deyir. Bir müddət sonra həmin oğlan bu davranışına görə bütün şəhərdə məşhurlaşır, hamı ondan danışır. Məsələ padşahın da qulağına gedib çatır.

Bir gün padşah bu məşhur gənci görmək istəyir. Əvvəlcə, dərvişdən həmin oğlan haqqında məlumat istəyir. Dərviş də ona bildirir ki, bu gənc dövrün ən mübarək, Allaha bağlı insanlarından biridir. Bunu eşidən padşah dərhal gəncin yanına gəlir. Ondan: "Kimsən? Problemin nədir? Nə istəyirsən?"- soruşur. Gəncin cavabı isə yalnız bir olur: "Allah". Padşah gəncin dilindən başqa söz çıxmadığını görüb geri qayıdır.

Səhərisi gün dərviş gəncin yanına gəlir və deyir ki, padşah öz qızını ona verməyə razı olanadək, o, padşahdan başqa bir şey istəməsin.

Bir gün yenə padşah oğlanın yanına gəlir və deyir: "Səni öz qızımla evləndirmək istəyirəm. Fikrin nədir?" Gənc oğlan isə bu təklifi rədd edir və deyir: "Qızınızla evlənmək istəmirəm. Mən başqa bir niyyətlə "Allah" dedim. Allah isə padşahı mənim kimi kasıb bir gəncin ayağına gətirdi. Mən sırf Allah rizası üçün "Allah" desəydim, kim bilir nələr olardı? Bundan sonra mən Ondan başqasını tanımıram, Ondan başqasını istəmirəm".

# Şəhid Əvvəl kimdir



İslam tarixinə xüsusi zinət verən alimlərin yetişdiyi məkanlar sırasında Livanın Cəbəlu Amil bölgəsi xüsusilik təşkil edir. Bir çox tanınmış simaların yetişdiyi bu Əhli-beyt (ə) sevgisinin yaşandığı məkan İslamın əvvəl illərindən başlayaraq bu günümüzə qədər böyük ilahiyyatçılar yetişdirməkdə davam edir. Bu gün bu böyük şəxsiyyətlər içindən sizə İslam tarixində «Şəhid Əvvəl» ləqəbini almış tanınmış mütəfəkkir, alim və şəhidini təqdim etmək istəyirik.

1315-ci ildə Livanın Cəzyin qəsəbəsində (Cəbəlu Amil) tanınmış alim Əbu Məhəmməd Məkkinin evində körpə bir uşaq dünyaya göz açır. Atası adını islam Peyğəmbərinin (s) şərəfinə Muhəmməd qoyur. Kiçik yaşlarından dini elmlərini elə ailəsindən alan Muhəmməd həmyaşları arasında elmi zəkasına görə çox fərqlənirdi. Babası Ayətullah Şeyx Muhəmməd Şəmsəddin, atası Əbu Muhəmməd Məkki balaca Muhəmmədin İslam zənginliklərini qavramaq üçün xüsusi enerji sərf edirdilər.

Təbii ki, bu bacarıq və istedadı ilə fərqlənən Muhəmmədə qoyulan sərmayənin müsbət nəticə verəcəyi ümidi çox idi. Bundan əlavə olaraq riyaziyyat sahəsini də dövrün böyük alimi, riyaziyyat elmləri üzrə bənzəri olmayan alim Şeyx Əsəduddin Sadiqidən alan Muhəmməd artıq gənclik çağlarında xüsusi istedad və bilgisi ilə bir çox alimlərdən fərqli mövqe nümayiş etdirirdi.

16 yaşında ikən Muhəmməd dini təhsilini kamilləşdirmək üçün İraqa, Ayətullah Hillinin rəhbərlik etdiyi hövzəyə yola düşür. Dövrün böyük mütəfəkkirlərinin yer aldığı bu ali tədris ocağına Cəbəlu Amildən ilk yola düşən şəxs də məhz Məhəmməd olur. O burada İslam dininin incəliklərinə yiyələnir, elmin əsaslarını tam və geniş surətdə dövrün müctəhidlərindən alır. Beş illik təhsili dövründə o bir çox xüsusi uğurlara imza atır. Qeyri adi zəkası ilə o Hillədə olduğu iki ildə Ayətullah Əllamə Hillinin nəzərindən yayınmır. 17 yaşında Ayətullah Əllamə Hilli ona ictihad icazəsi verir.

Əllamə Hilli Şəhid Əvvəl haqqında deyərdi ki, onun məndən faydalanması həqiqətdə mənim ondan faydalanmam idi. O qeyri-adi elm və məntiqə malik bir şəxs, görkəmli və əvəz olunmaz şəxsiyyət idi. Əllamə Hillidən sonra İslam dünyasının istiqamət alacağı şəxslər arasında Şəhid Əvvəl ən öncülləri təşkil edirdi. O, İraqda olduğu müddətdə təkcə Hillə ilə kifayətlənmir Kərbəla və sair şəhərlərdə yaşayan böyük cəfəri fəqihləri ilə görüşüb onlardan dini bilgilər öyrənərək İslamı daha dərindən əldə etməyə çalışır. 21 yaşında o tanınmış fəqih olaraq öz vətəninə Livana, Cəbəlu Amilə dönür.

Gənclik çağlarındakı evlilik istəkləri Muhəmmədi çətin seçimlə qarşı-qarşıya qoyur. O ailə quracağı xanımın da dini elmlər üzrə müəyyən naliyyətlər əldə etmiş olmasını tələb edir. Bu seçim ailəni çətin vəziyyətdə qoysa da onun üçün elə müəllimi, atasının əmisi olan Şeyx Sadiqinin fəqih qızını seçirlər. Bu evlilikdən dörd uşaqları dünyaya gəlir. Hər üç oğlu İslam dünyasının tanınmış fəqihləri və qızı da qardaşlarından heç də fərqlənməyən elm mənşəli bu ailə Allahın bərəkəti ilə Cəbəlu Amiliyə yeni nəfəs gətirdi.

Ölkəsinə qayıtdıqdan sonra Ayətullah Muhəmməd Şəhid Əvvəl ilk olaraq görəcəyi işini dini tədris üçün məktəb yaratmaq olduğunu bəyan edir və qısa bir zamanda tələbələrin rahat təhsil alması üçün mədrəsəni tikib hazırlayır. Bu tədris ocağından təkcə öz dövrü üçün onlarca tanınmış din alimləri çıxmaqla yanaşı zaman keçdikcə ocaq genişlənərək mütəfəkkir və fəqihlərin məkanına çevrilir. Mövcud elmi dəyərlərin inteqrasiyası məqsədi ilə Şəhid Əvvəl Misir, Məkkə, Mədinə, Fələstinə səfərlər edir, orada yaşayan elm adamları ilə görüşlər keçirir, elmi mübahisələr aparır.

1349-cu ildə o Dəməşqdə İslam dünyasının böyük filosofu Qutbuddin Razi ilə görüşür. Bu görüş Şəhid Əvvəl üçün həmişə şirin xatirə olaraq sadalanan görüşlərdən idi. Bunu da qeyd etmək yerinə düşərdi ki, Şəhid Əvvəl əhli-sünnə fiqhini gözəl bildiyi üçün böyük sünnü alimləri ilə də sıx görüşlər keçirirdi. Hətta sünnü alimlərinin onun fiqhi bilgilərindən faydalandığı məqamlar tarixdə öz əksini tapmaqdadır.

1350-ci ildə Şəhid Əvvəl Dəməşqdə yaranan dini ziddiyyətlərə, əqidəvi qarşıdurmaların şiddət alması səbəbi ilə ora dəvət alır. İctimai, siyasi dini qarşıdurmaların kluminasiya nöqtəsinə çatdığı əraziyə gələn Şəhid Əvvəl məzhəbdə ziddiyyət təşkil etdiyi bu cəmin problemlərinin həllini az bir zamanda yerinə qoya bilir. Lakin eyni halda peyğəmbərlik iddiasında olan və bir çox Şamlını ətrafına toplayan Muhəmməd Yalusi ilə uzun bir danışıqlar aparır.

Lakin öz iddiasında israrlı olan Muhəmməd Yalusi peyğəmbər olmasında tələbli olmaqla yanaşı İslam dünyasının ehtiram etdiyi hər bir dəyərinə təhqir etməklə müsəlmanlara qarşı amansız müharibəyə qalxır. Belə olan halda Dəməşq hökumətinə müraciət edən Şəhid Əvvəl onun qətlini tələb edir. İddiası Dəməşq müftiləri tərəfindən araşdırılan Şəhid Əvvəlin tələbi qəbul olunur və 1352-ci ildə Muhəmməd Yalusi və bir neçə tərəfdarı həbs olunaraq ölüm hökmü ilə qətlə yetirilirlər.

Bu hadisə Dəməşqdə Yalusi sevənlərin nifrətli və ədavətli bir yol tutmalarına səbəb olur. Onlar hər vəchlə çalışırlar ki, Şəhid Əvvəlin din əqidəsinin bir nöqtəsini qabardaraq Müaviyənin şəhəri olan Şamın sünnü əhalisi ilə müharibəyə çəkib onu öldürtsünlər. Amma Şəhid Əvvəlin zəkası bu addımın gerçəkləşməsinə əsla yol vermir. Əlbəttə Şəhid Əvvəl cəfəri əqidəsinə lazım olan əsərlərin, elmi kitabların yazılması istiqamətində də bir an olsun dayanmır, lakin o bunu çox zərif və gizlin surətdə edir.

Şəhid Əvvəl islam dünyası üçün az ömrü ilə çox qiymətli əsərlər yazır. Onun əsərləri içində İslam dünyası üçün xüsusi əhəmiyyət daşıdığı fiqh sahəsində yazdığı kitablarıdır. O bu kitabı Dəməşqdə, əhli-sünnənin radikal alimləri, dini cərəyanlarının ən sərt olduğu bir dövrdə, gizlin formada yazır. Bir həftə ərzində hazırlanan çox dəyərli olan bu əsər üçün Şəhid Əvvəl bir həftə evdən bayıra çıxmır. Qeyd edək ki, onun fiqh sahəsində yazdığı «Lümətül Dəməşqi» adlı əsəri cəfəri aləmində fiqhi əhatə edən ən kamil əsərdir. Bu əsərə bu günümüzə qədər yüzlərcə şərhlər yazmışlar. Əlbəttə ən kamil şərh Şəhid Saninin yazdığı «Ər-Rövzətil Bəhiyyə» kitabıdır. Bu əsərin açıqlanması, şərh olunması üçün geniş məzmunlu və dəyərli kitab sayılır.

1362-ci ildə Dəməşqdə hakimiyyət devrilir. Yeni hakimiyyətə gələn Bərkukun ilk diqqətini çəkən də evi önünə yüzlərcə insan toplaşan Şəhid Əvvəl olur. Özünə siyasi rəqib görən Bərkuk Şəhid Əvvəlin bu gedişlə Dəməşqi əlinə alacağı təhlükəsi ilə hər gün səbəblər axtarır ki, onu həbs etsin. Nəhayət dini radikalizm, cəfəri əqidəsinin yayılmasına görə 1363-cü ildə Şəhid Əvvəl Dəməşqdə həbs olunur. Bir ilə qədər həbsdə saxlanılan bu dəyərli şəxsin heç bir ittihamı sübut olunmur. Buna görə Bərkuk onu həbsdə saxlamaq üçün daha dərin yollar düşünərkən ona bu istiqamətdə yalançı peyğəmbər Muhəmməd Yalusinin tərəfdarları köməkçi olurlar.

Onlar imzalar toplayaraq Şəhid Əvvəlin dindən çıxmış mürtət olduğunu, dinin əleyhinə təbliğlər apardığına şahidlik edərək Şəhid Əvvəl haqqında ölüm hökmü çıxarılmasını tələb edirlər. Sərt məzhəbi fərqlilikləri olan Dəməşq hakimi Şəhid Əvvəlin ölkəsindəki təbliğini sevməməsi səbəbi müraciət olunan iddiaları daha da sərtləşdirir. O da Şəhid Əvvəlin ölüm hökmünü ədalətli sayaraq onu bir din düşməni kimi qəbul edir.

1364-cü ildə məhkəməsi qurulan Şəhid Əvvəl ona olunan iftiraları rədd edir və sübutu üçün ona yalnız Allahın kifayət etdiyini bildirir. Bu məhkəmə çıxışı sonuncu olsa da qərarın icrasını bir müddət uzadır, lakin dəyişə bilmir. 1365-ci ildə baş tutan növbəti məhkəmə Şəhid Əvvəli 52 yaşında ölüm hökmü ilə cəzalanmasını qüvvədə saxlayır. Şəhid Əvvəl dar ağacından asılaraq öldürüldü. Bununla ürəkləri soyumayan xəbis qəlbli şəxslər onun asılmış cənazəsini daşladılar və son olaraq onun cənazəsinə od vurub yandırdılar.

Tək günahi cəfəri alimi olmaq səbəbi ilə şəhid edilən Şəhid Əvvələ İslam alimləri İslam dünyasının İmamətdən sonra ilk əqidə şəhidi, «Şəhid Əvvəl» ləqəbini verdilər. Onun bu gün məzarı olmasa da bütün haqq sevən insanların qəlbi onun gülüstan tutub yaşadığı məkan olaraq qalmaqdadır.

# Meyvə şirələri və onların xeyirləri

***Meyvə şirələri orqanizm üçün meyvənin özündən daha faydalıdır. Belə ki, şirələr daha tez, bir neçə dəqiqəyə həzm olunur və həzmetmə sistemi yüklənmir. Qida maddələri ilə zəngin olan şirələrin faydaları aşağıdakı kimidir.***



## Alma şirəsi

Qan azlığına, böyrəklərdən daşların düşməsinə kömək edən alma şirəsində minimal miqdarda kalori və çox miqdarda dəmir var. Almanın tərkibində orqanizmi şlaqlardan təmizləyən pektin maddələri olduğundan pəhriz saxlayanlara və fitneslə məşğul olanlara məsləhətdir. Tənəffüs orqanlarının işinin yaxşılaşması üçün gündə stəkan yarım alma şirəsi içilməlidir. Alma şirəsi kök, çuğundur və portağal şirəsi ilə qarışdırıldıqda daha da faydalı olur.

## Armud şirəsi

Qan dövranı sistemi və böyrək problemi olanlara məsləhət görülən armud şirəsi əla sidikqovucu təsirə malikdir. Bu şirədə bağırsaq və həzmetmə sisteminin işini yaxşılaşdıran pektin birləşməsi var. Armud şirəsi piylənmədən əziyyət çəkənlərə məsləhətdir, belə ki, o, həzmetməni tənzimləyir, antiseptik, antibakterial və ağrıkəsici təsirə malikdir.

## Portağal şirəsi

Portağal şirəsi vitamin C mənbəyidir, ona görə bu şirəni əsasən ilin soyuq aylarında soyuqdəymənin müalicəsi və prafilaktikası məqsədilə içirlər. Portağal avitaminoz problemi olan insanlara da çox faydalıdır. Bu şirə tonusu artırır, yorğunluğu aradan qaldırır və qan damarlarını möhkəmləndirir. Həkimlər portağal şirəsini böyrək xəstəlikləri, ateros-kleroz və hipertoniya zamanı içməyi məsləhət görürlər. Bu şirəni mədə xorası, onikibarmaq bağırsaq, bağırsaq pozğunluğu və qastrit zamanı içmək olmaz.

## Ananas şirəsi

Ananas şirəsi bromelayn adlanan təbii maddə ilə zəngindir ki, bu da piyləri əridir və orqanizmi cavanlaşdırır. Bu şirə, həmçinin angina və böyrək müalicəsi, stress və üşütmə zamanı faydalıdır. O, mədəaltı vəzinin işinə yaxşı təsir edir, orqanizmdən mayeni çıxarır ki, bu da sellülitin prafilaktikasına kömək edir. Ananas şirəsi ayaq şişkinliyi və tromboz zamanı da məsləhət görülür. Bu şirəni içə-içə rahat arıqlaya bilərsiniz.

## Qreypfrut şirəsi

Bir qreypfrut ilə gündəlik vitamin C ehtiyatınızı ödəyəcəksiniz. Qreypfrut stresin müalicəsi üçün təbii həbdir. Həzmetmə sistemində problemi olanlara bu şirəni içmək məsləhətdir. Yeni sıxılmış şirə qan təzyiqi və böyrək pozğunluğu zamanı içilməlidir. Həmçinin iştahasızlıq, yuxusuzluq, yorğunluq problemini də aradan qaldırır. Qreypfrutda çoxlu vitamin, az kalori olduğundan müxtəlif pəhrizlər üçün əvəzolunmazdır.

## Nar şirəsi

Nar şirəsi hemoqlobini artıran müxtəlif təbii maddələr arasında birincidir. O, orqanizm tərəfindən rahat həzm olunur, iştahanı artırır və mədə fəaliyyətini nizama salır. O, sidikqovucu, antiseptik, ağrıkəsici vasitədir. Mədə xəstəliklərində nar şirəsini içmək olmaz. Ümumiyyətlə, nar şirəsini su ilə qarışdırıb içmək məsləhətdir. Nar şirəsi insann radiasiyaya qarşı müqavimətini artırdığından hazırda çox populyardır.

Şirəni sıxılan kimi içmək lazımdır, 10 dəqiqədən sonra faydalı xüsusiyyəti itəcək.

# İSLAMI QƏBUL EDƏN MƏŞHUR İDMANÇILAR (I)



## Nikolas Anelka

Fransa yığmasının və "Çelsi" klubunun hücumçusu. "Arsenal", "Real Madrid", "Liverpul", "Mançester Siti" və "Fənərbaxça" kimi klublarda çıxış edib. İslam dinini 2004-cü ildə qəbul edib və Abdul-Salam Bilal adını qəbul edib. Futbolçunun qardaşı Klaudio Anelka ABŞ-ın Missuri ştatının "AC St. Louis" futbol klubunun baş məşqçisidir.



## Frank Riberi

Fransa yığmasının və "Bavariya" klubunun futbolçusu. Futbolçu daha öncə "Mets", "Marsel" və "Qalatasaray" klublarında da çıxış edib. 2006-cı ildən yığmada çıxış edir və indiyədək 48 oyunda meydana çıxıb. Riberi İslamı qəbul etdikdən sonra Bilal Yusif Muhəmməd adını götürüb.



## Erik Abidal

Fransa millisinin və "Barselona" klubunun müdafiəçisi. Futbolçu daha öncə "Monako", "Lion" kimi klublarda da çıxış edib. Fransa yığmasında 2004-cü ildən forma geyir və indiyədək 55 oyunda meydana çıxıb.



## Abel Xavyer

Portuqaliyalı sabiq futbolçu. Dünyaca məşhur "PSV", "Everton", "Liverpul", "Roma", "Midlsbro" və "Qalatasaray" kimi klublarda forma geyib. Xavyer Türkiyədə oynayarkən İslamla yaxından tanış olub və 2003-cü ildə İslamı qəbul edib. İslamı sülh, azadlıq, bərabərlik və ümid dini olduğuna görə seçdiyini bildirib.

## Bruno Metsu

Fransız futbolçu və baş məşqçi. Futbolçu olaraq "Anderlext", "Valensiyen" və "Lill" kimi klublarda forma



geyib. Məşqçilik karyerası ərzində "Lill", "Valensiyen", "Sedan" və "Əl-İttihad" klublarını, Qvineya, Seneqal, və BƏƏ millilərini çalışdırıb. Hal-hazırda Qətərin baş məşqçisidir. Seneqal yığmasına başçılıq etdiyi zamanlarda İslam dinini qəbul edib.



## Li Haqs

İngilis futbolçusu. Hücumçu İngiltərənin "Nots Kaunti" klubunda forma geyir. Futbolçu 2003-04-cü illərdə həbs olunmuş, həbsdə ikən İslam dinini qəbul etmişdir. "Bləkpul" və "Vest Bromviç Albion" kimi klublarda da forma geyən hücumçu karyerası ərzində keçirdiyi 495 oyunda 225 qol vurub.



## Məhəmməd Əli

Amerikalı əfsanəvi boks ustası. 1964-cü ildə İslam dinini qəbul edib. Peşəkar rinqdə ilk 31 görüşünü qələbə ilə başa vurub ki, bu da 10 illik dövrü əhatə edib. Ümumilikdə isə, keçirdiyi 61 görüşdən 56-da qalib gəlib. Əsl adı Kasius Marselus Kley olub.



## Mayk Tayson

1995-ci ildə İslamı qəbul edib. İlk 39 görüşdə bütün rəqiblərini məğlub edib. Ümumilikdə isə, 58 görüşdən 50-də qalib gəlib.



## Antoni Mandin

Avstraliyalı boksçu. 1999-cu ildə İslamı qəbul edib. Peşəkar rinqdə keçirdiyi 43 görüşün 40-da qalib gəlib.



### Kris Eubank

Britaniyalı boksçu. Peşəkar rinqdə keçrdiyi 52 görüşdən 45-də qalib gəlib, 5 görüşdə məğlub olub və 2 görüşdə heç-heçəyə razılaşıb. Anti-müharibə aksiyaları keçirməklə də məşhurlaşıb. 1997-ci ilin martında İslamı qəbul edib.



### Denni Vilyams

Britaniyalı boksçu. Peşəkar rinqdə 51 görüş keçirib, bunlardan 41-də qalib gəlib. Boksçu 2004-cü ildə Mayk Taysonu məğlub edib.



### Maksvel Antonio Loaç

Metyu Səid Muhəmməd (16 iyun 1954) – Amerikalı boksçu. Peşəkar rinqdə 58 görüş keçirmiş və bunlardan 39-da qələbə qazanmışdır. 1977-ci ildə İslam dinini qəbul etmişdir.



### Ferdinand Levis

Amerikalı basketbolçu. "Los Angeles Leykers" komandasında 14 il forma geyib. Karyerası ərzində 38 387 xal, 17 440 ribaund qazanmışdır. Kərim Əbdül Cabbar adını qəbul edib.



### Kris Veyn Cekson

Amerikalı basketbolçu. 1991-ci ildə İslamı qəbul edib və adını dəyişib. "Fənərbaxça", "Sakramento Kinqs" və "Əl-İttihad" kimi klublarda çıxış edib. Mahmud Abdul Rauf adını qəbul edib.



### Larri Conson

Amerikalı basketbolçu. "Charlotte Hornets" və "New York Knicks" klublarında çıxış edib. İslam dinini qəbul etməsində Ramazan ayının əsas rol oynadığını bildirib.



### Volt Hazard

Amerikalı basketbolçu. "Los Angeles Lakers" "Seattle SuperSonics" və "Buffalo Braves" kimi klublarda çıxış edib. İslam dinini qəbul etdikdən sonra Mehdi Əbdül-Rəhman adını qəbu edib.



### Jadel Qreqorio

Braziliyalı atlet. Uzunluğa tullanma və 3 cəhdə tullanma üzrə beynəlxalq idman yarışlarında yüksək nəticələrə imza atıb. 2001-ci ildən bu günə kimi beynəlxalq yarışlarda 1 qızıl, 5 gümüş, 1 bürünc medal qazanmış, 2 dəfə 4-cü, 3 dəfə isə 5-ci pilləyə sahib olub.Ən zəif nəticəsi 6-cı pillə olub. 2008-ci il Pekin Olimpiadasında Braziliyanı təmsil edib. 2005-ci ildə İslamı qəbul edib.

## *ATEİST PROFESSOR MÜSƏLMAN OLDU*

***O, Məkkə və Mədinəyə ümrə ziyarəti həyata keçirmək niyyətindədir***

***"Qurani Kərim yeganə kitabdır ki, bizim dövrümüzə qədər, İslam peyğəmbəri Həzrəti Muhəmmədə (s) Allah tərəfindən göndərildiyi formada çatıb". Qaynar.info xəbər verir ki, Kaliforniya Universitetinin professoru, doktor Periyadarşan, İslam dinini qəbul edib və bu seçimi barədə müsahibə verib. Onun sözlərinə görə, o, ona görə İslamı qəbul edib ki, bu din, Allah tərəfindən göndərilmiş və heç bir dəyişikliyə uğradılmamış müqəddəs kitaba – Qurani Kərimə əsaslanır.Müxtəlif dinləri araşdıran bir insan kimi, o əmindir ki, digər dinlərin müqəddəs kitabları çoxlu sayda təhriflərə məruz qalıb. Professor dərindən araşdırıb ki, Qurani Kərim yeganə kitabdır ki, bizim dövrümüzə qədər, İslam peyğəmbəri Həzrəti Muhəmmədə (s) Allah tərəfindən göndərildiyi formada çatıb.İndi özünə Abdullah adı götürən professor, uzun müddət Hindistanda özünün ateist çıxışları ilə tanınırdı. Sonra o başa düşüb ki, inanc – insan üçün yeganə xilas yoludur. Yaxın vaxtlarda o, Məkkə və Mədinəyə ümrə ziyarəti (kiçik Həcc) həyata keçirmək niyyətindədir***

# KRASVORD
KRASVORD



*Eninə*
*5.İnsanı azdıran*
*6. Möminlərin gedəcəyi yer*
*7. Peyğəmbərin (s) vəlisi*
*8. Quranda adı çəkilən meyvə*
*9. Namaza çağırış*

*Aşağı*
*1. Musa Peyğımbırin (ə) qardaşı*
*2.Namaza hazırlıq*
*3.Adəm Peyğəmbərin (ə) oğlu*
*4.İsa Peyğəmbərə (ə) göndərilən kitab*
*5. Dörd rükətli namaz*



*Eninə*
*1.Musa Peyğəmbərə (ə) göndərilən kitab*
*4. Məsumların sayı*
*6. İmam Əlinin (ə) övladı*
*7. Müsəlmanların qibləsi*
*8. Tövbələri qəbul edən*
*9. Haram içki*

*Aşağı*
*2.Adına qurbanlıq göndərilən Peyğəmbər*
*3. Müqəddəs şəhər*
*5. Alını möhürə qoymaq*
*6.Baş örtüyü*



## *Duaların qəbul olmamasının 10 səbəbi*

***Bir zamanlar Bəsrə vilayətinin xalqı ibrahim Edhem həzrətlərinə müraciət edərək dualarını qəbul olmadığından şikayət etmişlər.***

***Halbuki Cənabı Haqq duaların qəbul olunacağına dair vədi vardır, deyincə İbrahim Edhem həzrətləri cavab olaraq buyurmuşdur:***

***-Sizin on şeydən ürəkləriniz ölmüşdür. Təbiidir ki, dualarınız qəbul olunmaz.***

***Birincisi: Siz Allahı tanıyırıq deyirsiniz, ancaq haqqlarını heç əda etmirsiniz.***

***İkincisi: Sizlər Quran oxuyursunuz və lakin Qurana əməl etmirsiniz.***

***Üçüncüsü: Sizlər, biz Rəsulullahı sevirik, deyərsiniz, amma sünnətinə (davranışına) uyğun heç əməl etməzsiniz.***

***Dördüncüsü: şeytan düşmənimizdir. Bunu bildiyiniz halda ona uyğunlaşmaqdan imtina etmirsiniz.***

***Beşincisi: Cənnəti sevirik deyir-siniz, cənnətə qovuşmaq üçün layiq olmağa çalışmırsınız.***

***Altınçısı: Siz Cəhənnəmdən qorunuruq deyirsiniz, lakin onun atəşindən heç də qaçdığınız yoxdur.***

***Yeddincisi: Hamınız ölüm haqdır deyib ölüm üçün heç bir hazırlıq etməmisiniz.***

***Səkkizincisi: Başqalarının eyibləriylə məşğul olursunuz da, öz eyiblərinizi tərk edib onları aradan qaldırmağa çalışmırsınız.***

***Doqquzuncusu: Allahın nemətlərini yeyirsiniz, lakin o nemətlərə qarşılıq Allaha şükr etmirsiniz.***

***Onuncusu: Ölülərinizi dəfn edirsiniz, amma ondan heç ibrət götürmürsünüz.***

# Tbilisi "CÜMƏ" məscidi Həzrət Zəhra (s.ə) mədrəsəsi tələbə qəbulu elan edir

***Həzrət Məhəmməd (s)"Mənim ümmətimdən olan hər bir ağıl və düşüncə sahibinə dörd şey zəruri və lazımdır." Soruşuldu: Ey Allahın elçisi! Onlar nədir? Həzrət buyurdu: " Elmi eşitmək, onu qoruyub saxlamaq, elmi yaymaq və ona əməl etmək."***

2005-ci ildən etibarən fəaliyyət göstərən «Həzrət Zəhra (s.ə)» adına qızlar mədrəsəsi artıq 8-ci fəaliyyət ilinə qədəm qoymuşdur. Yarandığı gündən etibarən bir neçə yeniyetmə qızlara təlim-tərbiyə verməklə məzun etmişdir. Aşağıda göstərilən mədrəsənin dərs proqramını əsas tut-araq demək olar ki, bu təhsil ocağı dini savad və dillər öyrətməklə yanaşı gələcəyin anası olan qız tələbələrinə hər növ əxlaqsızlıq və fəsaddan qorunmağın yolunu göstərmiş, dinimizin buyurduğu tərzdə vətəninə gözəl vətəndaş, xalqına nümunəvi xanım, gələcəkdə yeni quracağı ailəsinə evdar ana və Allaha layiqli bəndə olmağı aşılamışdır.

Bu il də «Cümə» məscidinin nəzdində fəaliyyət göstərən həmin mədrəsə İslam maarifini öyrənmək istəyənlər üçün iki il yarımlıq kurs təşkil edib və gənc qızları təhsil almağa dəvət edir.

Kursda keçirilən dini dərslərin əsas proqramı:

1. Quran elmləri və təfsiri;
2. İlahiyyat və İslam maarifi (Əxlaq, Əhkam, Əqidə üsulları);
3. Quran və hədis təlimi;
4. Gürcü, ərəb və ingilis dilləri;
5. Kompüter kursları və ilk tibbi yardım və digər mühazirələr.
6. İslam və dinlər tarixi;
7. Evdarlıq (tikiş tikmək, toxuculuq, yemək bişirmək və s. peşələri) öyrətimi.

Qeyd: Mədrəsənin əsas özəlliyi və digər təhsil ocaqlarından fərqi onun tam şəraitli yataqxanaya və gündə üç dəfə yeməklərlə təmin etməsinə malik olmasındadır.

Qəbul üçün aşağıdakı sənədlər tələb olunur:

1. Sağlamlıq haqqında arayış;
2. Doqquz və ya on bir illik attestat;
3. Şifahi sorğu və test üzrə yoxlama.

Qəbul üçün bu nömrə ilə əlaqə saxlaya bilərsiz. Həzrət Zəhra mədrəsəsinin əlaqə telefonu : 855 393 853

Həmçinin 2011- ci ildən etibarən İslam maarifini öyrənmək istəyən gənclər üçün yeni kurslar açılıbdır. Kursun müddəti 3 ildir. Bu kursda müəyyən fəaliyyətlərə nail olmuş məzunları təhsil almaq üçün dəvət edi-rik.

Qəbul üçün bu sənədlər tələb olunur:

1. 11 və ya 12 illik attestat
2. Mədrəsə diplomu

Daha geniş məlumat əldə etmək üçün oğlanların İmam Rza (ə), qızların Həzrət Zəhra(s.ə.) mədrəsəsinə müraciət olunması xahiş olunur.

İmam Rza (ə) mədrəsəsinin əlaqə telefonu : 893 972 973

Həzrət Zəhra (s.ə) mədrəsəsinin əlaqə telefonu : 855 393 853








